Bədii əsərlərin dilini zənginləşdirən söz qruplarından biri də dialekt sözləridir. Dilçilik ədəbiyyatında bu sözlər dialekt leksikası, məhəlli sözlər, professionalizm və dialektizm terminləri ilə ifadə olunur. Məhərrəm Məmmədli bu termini belə izah edir: "Dialektizm dilçilikdə iki mənada anlaşılır; birincisi, bədii ədəbiyyatda işlənən dialekt sözləri, ikincisi də yalnız dialektə xas olan sözlər (buna spesifik dialekt sözləri, özünəməxsus sözlər də deyilir (Məmmədli, 2019: 12). Alimlər dialektizmləri fərqli təsnif etmişlər. Afad Qurbanov fonetik, lüğəvi, qrammatik dialektizmləri göstərmiş, lüğəvi dialektizmləri isə xarakterinə görə dörd növə ayırmışdır: leksik, leksik-semantik, semantik və frazeoloji (Qurbanov, 2015: 266). Həsrət Həsənov dialektizmlərin fonetik, morfoloji, leksik, semantik və leksik-semantik növlərini təsnif etmişdir (Həsənov, 2005: 287). Məmmədağa Şirəliyev isə leksik xüsusiyyətlərinə görə dialektizmləri iki qrupa ayırmışdır: "1) terminoloji səciyə daşıyan sözlər; 2) terminoloji səciyyə daşımayan sözlər" (Şirəliyev, 2008: 331). Müəllif birinci qrupa təbiət hadisələri, kənd təsərrüfatı alətləri, heyvanların müxtəlif xüsusiyyətlərinə görə növlərini bildirən sözləri, ikinci qrupa isə ədəbi dildə işlənməyən sözləri (məsələn, arağaş – tezdən) aid etmişdir.

Dialektizmlər dilin zənginləşməsində yaxından iştirak edir. Ədəbi dilin zənginləşməsi üçün əsas olan dialektlər zaman içərisində ədəbi dilin təsiri ilə əriyib yox olur. Dilçilər "dialektlərin ərimə prosesi"ni belə təsnif edir: "1. Sözlər dialektlərdən ədəbi dilə keçir; 2. Sözlər ədəbi dildən dialektlərə keçir" (Teymurlu, 2017: 110; Əfəndiyeva, 2012: 205). Birinci halda zamanla ədəbi dildə möhkəmlənən dialektizm dili yeni sinonim sözlə zənginləşdirir (Həsənov, 2005: 284). İkinci halda isə dialekt sözün ədəbi dildəki qarşılığı zamanla dialekt sözünü sıradan çıxarır və həmin dialekt sözü unudulur.

Məhdud bir ərazidə yaşayan əhalinin nitqinə xas sözlər yazılı ədəbiyyata bədii yaradıcılıq vasitəsilə keçir. "Üslubi cəhətdən neytral məna bildirən dialekt sözlər bədii əsərin dilinə daxil olduqda ifadəli nitq vasitəsinə çevrilir" (Əfəndiyeva, 2012: 208). Dialektizmlər bədii əsərdə ya müəllifin təhkiyəsində, ya da obrazların dilində istifadə edilir. Dialekt sözlərinin bədii dilə gətirilməsi heç də birmənalı qarşılanmamışdır. "Bir qisim alimlər (C.Xəndan, Mir Cəlal, P.Xəlilov, A.Ə.Aslanov) müəllifin təhkiyəsində dialekt xüsusiyyətlərini qüsur saydığı halda, bir qisim tədqiqatçılar (M.Arif, M.Adilov və b.) həm surətlərin dilində, həm də müəllifin təhkiyəsində məqbul hesab edir" (Mirzəli, 2020: 495; 8). Səlim Cəfərov bu barədə yazır: "Lazım olmadığı halda, yerli ləhcə və şivə sözlərinə meyil göstərmək, onları ədəbi dildə işlətmək dili korlamaqdan başqa bir şey deyildir" (Cəfərov, 2007: 72). Məhərrəm Məmmədli isə: "Dialektizmlərdən yerli-yersiz istifadə bədii əsərin dilini ağırlaşdırsa da, zərurət nəticəsində işlədilən dialektizmlər bədii dili daha da oxunaqlı edir", – deyə bildirir (Məmmədli, 2019: 12). Biz də alimin bu fikri ilə razılaşırıq.

Yuxarıda da qeyd etdiyimiz kimi yazıçı ya obrazın dilini fərdiləşdirmək, ya da təhkiyə dilində xalq adət-ənənəsini, yaşayışını ifadə etmək üçün dialektizmlərdən bədii ədəbiyyatda istifadə edir. Dilin zəngin lüğət tərkibindən istifadə edərək Azərbaycan ədəbiyyatına bir-birindən maraqlı süjet xəttinə malik əsərlərlə töhfə verən yazıçılardan biri də Mövlud Süleymanlıdır. Yazıçının roman, povest və hekayələri zəngin lüğət tərkibi ilə seçilir. Bu məqalədə Mövlud Süleymanlının "Seçilmiş əsərləri"nə daxil olan hekayələrin dilindəki dialektizmləri tədqiqata cəlb etmişik. Həmin nümunələrin bir qismi aşağıdakılardan ibarətdir:

**1. Əlamət bildirən dialektizmlər:**

*Orda-burda dəstələnən bozumtul bulud topaları dağları* ***dəmgil-dəmgil*** *kölgələdi* (Süleymanlı, 2006: 369). Nümunədə verilən dəmgil sözü Borçalı, Çənbərək, Qazax, Şəmkir şivələrində seyrək, tək-tək, orda-burda mənasında işlənir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 125). Yazıçı iki sözün təkrarı ilə mürəkkəb söz yaradıb.

*Mahmud kişi də irəli yeriyib ağacın qabığından götürdü, burnuna tutub iylədi,* ***kirimişcə*** *yanındakılara dedi* (Süleymanlı, 2006: 375). Sakitcə, dinməzcə mənalarını bildirən kirimişcə sözü Borçalı, Salyan, Qazax, Ucar şivələrində işlənir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 255).

*Qarın rəngi göyə çalırdı; yayda – yan-yörəyə sərinlik, dinclik havası yayan alçacıq,* ***yosma*** *təpəliklərin görkəmindən qəzəb, hirs yağırdı* (Süleymanlı, 2006: 451). Yosma sözü Biləsuvar,

Cəlilabad, İmişli, Kürdəmir şivələrində işlənir, alçaq (daxma) deməkdir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 551). Nümunədə də bu söz alçaq təpəlikləri bildirir.

*Biri var idi, biri yox idi, Elbəy, bir **kəlin** qoyun var idi, bir gün... bu **kəlin** qoyun dedi* (Süleymanlı, 2006: 386). Kəlin Ağcabədi, Ağdam, Başkeçid, Borçalı, Culfa, Füzuli, Hamamlı, Xocavənd, Kürdəmir, Qax, Qazax, Şəmkir, Tovuz şivələrində buynuzlu qoyunu bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 248).

*Kirvəliyə türk Uğurlu bir **alapaça** ürgə at verdi* (Süleymanlı, 2006: 461). Alapaça Ağdaş şivəsində işlənən paçasının arası ağ atı bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 20).

**2. Əşya, məkan, varlıq və s. ifadə edən dialektizmlər:**

*Həmişə belə çiskin gələn kimi **qıymaca** şalını başına çəkib gicitkən dərməyə çalışardı* (Süleymanlı, 2006: 365). Bu nümunədə istifadə olunan qıymaca sözü Başkeçid, Borçalı, Qazax şivələrində [qıymaça] şəklində istifadə edilir. Üçkünc və ya dördkünc baş yaylığı deməkdir (ADDL, 2007: 304).

*Hər il payızın **yeləni** qızaranda babamın tənbəki payı gələrdi* (Süleymanlı, 2006: 367). Nümunədəki yelən sözünün dialektoloji lüğətdə iki mənası göstərilib. Belə ki, Kürdəmir, Naxçıvan, Şamaxı şivələrində bu söz kiçik palaz, örtük mənasını, Füzuli, Gədəbəy, Gəncə, İmişli, Kürdəmir, Qax, Qazax, Mingəçevir, Tovuz şivələrində isə kəlağayı, yorğan, palazdakı haşiyəni bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 546). Fikrimizcə, yazıçı burada payız fəslində təbiət yorğanının qızılı rəngə boyanmasından bəhs edib.

*Qəssabın yanından keçirdi, **çəngəldən** qoyun cəmdəkləri asılmışdı* (Süleymanlı, 2006: 386). Çəngəl sözü paltar asmaq üçün istifadə edilən asılqan deməkdir. Goranboy, Qazax, Şəki, İrəvan şivələrində işlədilir. Burada isə qəssabxanada kəsilən heyvanların asıldığı dəmir asılqan mənasındadır.

*Başını qaldırdı, gördü oğlu paltar* **zivəsini** *sallayıb eyvannan aşağı, ağlayıb qışqırır* (Süleymanlı, 2006: 387). Bakı, Lənkəran, Ordubad şivələrində işlənən zivə sözü paltar sərilən ip deməkdir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 563).

*Gümüş kəmər idi, gümüş yaxalıq, **dingə**, bilərzik idi ki, daha heç kəsə lazım deyildi* (Süleymanlı, 2006: 395). Bu söz dialektlərdə üç mənada işlənir: 1) Cənubi Azərbaycan, Cəbrayıl, Şamaxı şivələrində hündür yer, təpə və ya camaatın söhbət üçün toplaşdığı yer; 2) Çənbərək, Gəncə, Qazax, Şəmkir şivələrində kiçik qoz ağacı və ya kəsilmiş ağacın kötüyü; 3) Gəncə, Qazax, Ordubad, Şamaxı şivələrində başa bağlanan bəzək geyimi və Borçalı, Hamamlı, Kürdəmir, Qazax şivələrində çələng (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 135). Nümunə verilən cümlədəki həmcins üzvlərə nəzər saldıqda geyim üçün istifadə edilən bir əşya olduğu aydın olur.

*Kəlin qoyunun böyrəklərini də bişirib verdilər Turaba, dedilər, bu da sənin **nəmərin*** (Süleymanlı, 2006: 419). Nəmər sözü müxtəlif şivələrdə işlənir. Bir neçə mənası var: toyda ev sahibinə və ya aşığa verilən pul; toyda paylanan şirniyyat; oğlan evlənəndə və ya qız ərə gedəndə onlara verilən hədiyyə (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 372).

*Ala it bir-bir həyətlərə döndü, diş ağardan, baş qaldıran itləri boğdu, gəlinlər, qızlar, qarılar haya çıxdı, **tolamaz** atdılar, ala it quyruğunu belinə qoyub uzaqlaşdı, heç kəsə endimədi* (Süleymanlı, 2006: 441). Tolamaz Mingəçevir, Oğuz, Tovuz şivələrində səlbə mənasını bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 501). Səlbə ağacdan meyvəni salmaq, heyvanları qovmaq və s. üçün atılan ağac parçasıdır (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 79).

*– Necə gəlirsən, – dedi, – uzaq yoldu, yaxın da deyil, oturub **gapdan-gələcədən** eləyirik, bir şey anlaya bilmirəm səndən* (Süleymanlı, 2006: 368). Bu nümunədə işlənən gap-gələcə sözünün birinci hissəsi Ağcabədi, Ağdam, Füzuli, Qazax, Tovuz şivələrində söhbət, [gap eləməx`] söhbət etmək mənasını bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 174). Gələcə isə bir məna kəsb etmir. Fikrimizcə, yazıçı burada tərəflərindən biri məna kəsb etməyən mürəkkəb söz yaradıb. Gap-gələcə də söz-söhbət mənasında işlənib (12).

*Dədəsi gördü Elbəy eşitmədi, uzun-uzadı **füşkürək** çaldı* (Süleymanlı, 2006: 383). Füşkürək sözü Bakı şivəsində işlənən fişdırığ və ya Yardımlı şivəsində işlənən fişduruğ sözlərinin bir variantıdır. Fit deməkdir.

*Utanmır* ***bazburutunnan****, ha boyuna qamış ölçüm* (Süleymanlı, 2006: 424). Bazburut Ağdam, Gəncə, Qazax şivələrində boy-buxun, görkəm mənalarında işlənir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 44).

*Ağzı qaraydı, gözlərində dəmgil,* ***qaşqasında*** *təpəl vardı* (Süleymanlı, 2006: 422). Qaşqa sözü ümumilikdə heyvanların alnını bildirir. Bir çox şivələrdə işləkdir. Təpəlqaşqa sözü isə alnında ləkəsi olan deməkdir. Xalq dilində işləkdir.

*Altı uşaq Göy atın* ***yalmanından*** *quyruğunun üstünə kimi düzüldülər, gen sinəsində, nazik ayaqlarında böyük-böyük qaçışlar gizlədən Göy at yenə göstəriş gözləmədən döndü, hörüklənməyə getdi* (Süleymanlı, 2006: 429). Bərdə, Borçalı, Hamamlı şivələrində atın yalı yalman sözü ilə ifadə edilir. Yal isə atın (və bəzi heyvanların) boynunun üst hissəsində bitən uzun tüklərdir (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 512).

***Sığırçı*** *Gülü bürüncəyi də qoltuğunda naxırın ardınca çıxdı* (Süleymanlı, 2006: 438). Ağstafa, Barana, Kəlbəcər, Qax, Qazax, Şəki, Şəmkir şivələrində heyvan-qaranı naxıra aparan şəxsi bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 432).

***Şenliyə*** *çıxanda deyirsən, qırx eşşəyi* ***sağından*** *qayıdır* (Süleymanlı, 2006: 368). İrəvan şivəsində [şenniy] kənd, oba, yaşayış məntəqəsi və ya kəndin bir hissəsi, məntəqəni bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 459). Sağın sözü isə Qafan, Şəki şivələrində sağılan heyvan və ya heyvan sağma prosesini bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 415).

*Birdən elə istədim ki, o* ***yastanada*** *mənim də bir evim olaydı, şəhərin səsindən-küyündən uzaq yaşayaydım* (Süleymanlı, 2006: 369). “Azərbaycan dilinin izahlı lüğəti”ndə yastan (a) sözü məhəlli xarakterli söz kimi göstərilib, dağda, təpədə, dikdirdə, qayalıqda yastı düz yer mənasını bildirir (ADİL, 2006: 548). “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə isə yasdan Dəvəçi və Qarakilsə şivələrində dağda düzənlik mənasını bildirir, Ağcabədi, Cəbrayıl, Daşkəsən, Füzuli, Gədəbəy, Hamamlı, Xanlar, Qazax şivələrində yasdana formasında işlənir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 542).

*Ona görə də öyrəşmişdilər hər səhər, hər axşam bir* ***daldaya*** *çəkilib qorxa-qorxa ala itə göz qoyurdular* (Süleymanlı, 2006: 438). Bu söz Bakı, Kürdəmir, Oğuz şivələrində gizli, məxfi yer; Bakı, Füzuli, Göyçay, Kürdəmir, Qax, Mingəçevir şivələrində külək, yağış, gün tutmayan yer Balakən şivəsində isə eyvan deməkdir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 112). Bu nümunədə gizli, məxfi yer mənasında işlənib.

*Xallı at* ***arxacın*** *ətəyində yatmışdı* (Süleymanlı, 2006: 417). Arxac və ya [arxaj] Başkeçid və Borçalı şivələrində ilin isti fəsillərində sürü və naxırların açıq havada yatdığı müəyyən yeri bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 25).

**3. Hərəkət bildirən dialektizmlər:**

*İmran toru siyirmədən çıxardı, çiyninin üztündən* ***qanrılıb*** *oğlunu səslədi* (Süleymanlı, 2006: 383). Sağır nun səsi ilə səslənən [qanrılmax] (İmişli) və ya [qanarılmax] (Qazax, Tovuz) sözü çevrilmək, dönmək mənasını bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 276-277).

*Ev-ev qoyun yataqlarının ağzı açıldı. Bir-birinə qarışa-qarışa dönüb sürü oldu.* ***Çəhlimə*** *düşüb* ***çözələndi*** (Süleymanlı, 2006: 416). Çəhlim sözü İmişli, Qazax, Meğri, Tovuz şivələrində yol, cığır, Daşkəsən, Gədəbəy, Gəncə və Zəngilan şivələrində isə iz, ləpir mənalarında istifadə edilir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 93). Çözələnmək sözünün yarandığı çözələmək feili isə Cəlilabad və Sabirabad şivələrində [çözələməg], Gədəbəy, Gəncə, Şərur şivələrində [çözələməx`] kimi istifadə edilir, açmaq, uzatmaq mənalarını bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 107). Nümunədə yazıçı sürü halında qounların cığıra düşüb azalmasından bəhs edilir.

*Çən arabir* ***ayazıyırdı*** (Süleymanlı, 2006: 416). [Ayazımax] Ağdam, Borçalı, Qazax, Mingəçevir, Şuşa şivələrində xəstəlikdən ayılmaq, Cəbrayıl və Zəngibasar şivələrində isə havanın açılması, sakitləşməsini bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 30). Bu nümunədə müəllif sözün ikinci mənasından istifadə edib.

*Davadan iki il keçdi, yamaclar daralan təki, sular* ***soğulan*** *təki oldu* (Süleymanlı, 2006: 438). Bu söz Basarkeçər, Borçalı şivələrində işlənir, kəsilmək, suyun quruması mənalarını bildirir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 443). Nümunədə də suların qurumasından bəhs edilir.

*...hirsindən az qalırdı ağlasın, yerdən torpaq götürüb qızları* ***yalamalayardı*** (Süleymanlı, 2006: 442). *İstədi* ***yalama*** *atsın, gördü ki, Tükəz qarının qapısındakı əsgər naxıra inək gətirir, əlini yanına saldı, daş yerə düşdü, təəccüblə əsgərə baxdı, əsgərin bir qolu yox idi* (Süleymanlı, 2006: 444). Yalama sözü Çənbərək, Gədəbəy, Gəncə, Hamamlı, Qazax, Laçın, Zaqatala şivələrində heyvana verilən daş duz; Daşkəsən, Gədəbəy, Qazax, Tovuz şivələrində xırda daş, kəsək mənasında işlənir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 538). Bu nümunələrdə yalama daş, yalamalamaq isə daşa basmaq, daş-qalaq etmək mənasındadır.

*Firəng iti ağzıqara, özüqırmızıya çalan iri itdi, qarın üstündə* ***şonquyub*** *çobanın iti hardan gələcəydisə ora baxırdı* (Süleymanlı, 2006: 456). [Şonqımağ] İsmayıllı şivəsində çömbəlib oturmaq mənasında işlənir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 471).

## Nəticə

Yekun olaraq qeyd edə bilərik ki, Mövlud Süleymanlı Azərbaycan dilinin zəngin xəzinəsindən seçdiyi dialektizmləri həm obrazın dilində, həm də müəllif təhkiyəsində məharətlə istifadə etmişdir. Yazıçının hekayələrində işlənən dialektizmləri ifadə etdiyi məfhumlara görə üç cür qruplaşdırmaq mümkündür: 1. Əlamət bildirən dialektizmlər; 2. Əşya, məkan, varlıq və s. ifadə edən dialektizmlər; 3. Hərəkət bildirən dialektizmlər. Mövlud Süleymanlının hekayələrində işlənən dialektizmlər heç də anlaşılmaz deyil, oxucunu yormur, əksinə, onu əsərə cəlb edən ünsürlərdir.

## Ədəbiyyat

1. Həsənov, H. (2005). Müasir Azərbaycan dilinin leksikası. Bakı: Nurlan, 452 s.
2. Məmmədli, M. (2019). Azərbaycan dialektologiyası. Bakı: Zərdabi Nəşr, 352 s.
3. Qurbanov, A. (2019). Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 464 s.
4. Şirəliyev, M. (2008). Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 416 s.
5. Teymurlu, Z. (2017). İ.Şıxlının “Dəli Kür” romanında (I hissə) dialektizmlər və onların ədəbi dildə yeri. Elmi xəbərlər (Qərb Universiteti), s.109-115.
6. Əfəndiyeva, T. (2012). Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı: Elm və təhsil, 352 s.
7. Mirzəli, M. (2020). Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” povestində dialektizmlər. “Heydər Əliyev və Azərbaycan filologiyası” Respublika virtual elmi konfransının materialları. Bakı, s.494-501.
8. Cəfərov, S. (2007). Müasir Azərbaycan dili. Leksika. Bakı: Şərq-Qərb, 192 s.
9. Süleymanlı, M. (2006). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 480 s.
10. Azərbaycan dilinin dialektoloji lüğəti. (2007). Bakı: Şərq-Qərb, 568 s.
11. Azərbaycan dilinin izahlı lüğəti. (2006). Dörd cilddə. IV cild. Bakı: Şərq-Qərb, 712 s.
12. http://www.anl.az/down/meqale/amea_fs/2021/02/797750(meqale).pdf

Göndərilib: 18.06.2023 Qəbul edilib: 05.08.2023

DOI: https://doi.org/10.36719/2663-4619/94/33-38

**Nailə Qəhrəmanova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
dissertant
nailaqahramanova@mail.ru

# XARİCİ ÖLKƏLƏRDƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ VƏ SOSİAL TƏHLÜKƏSİZLİYİN İDARƏ EDİLMƏSİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN MAHİYYƏTİ

**Xülasə**

Xarici ölkələrin yerli özünüidarəetməsi müxtəlif model və yerli təşkilat növlərindən ibarətdir. Yerli özünüidarəetmə sistemlərinin quruluşundakı fərqlər bir çox amillərdən asılıdır: siyasi rejim, ölkədə hökm sürən yerli hakimiyyət və idarəetmənin təşkili ideyası, dövlət quruluşu və dövlətin inzibati-ərazi bölgüsü, milli ənənələr və s. Yerli özünüidarəetmənin əsas məqsədi yerli məsələlərin həlli üçün yerli əhalinin səylərini birləşdirməkdir ki, bu da, nəticə etibarı ilə, dövlətimizin demokratikliyini, sabitliyini və bütövlüyünü təmin edir.

Azərbaycan Respublikasın Konstitusiyasında yerli özünüidarəetmənin təsis edildiyi vaxtdan bu günə kimi kifayət qədər zaman keçməsinə baxmayaraq, nəticələr hələlik nə mütəxəssisləri, nə də əhalini tam qane etmir. Bu baxımdan qərb ölkələrində özünüidarəetmənin təşkili böyük maraq doğurur.

Sosial təhlükəsizliyə gəldikdə isə, burada həyatın, sağlamlığın, rifahın, insan hüquq və azadlıqlarının qorunması əsas, bilavasitə məqsəddir. Bu, insanlar arasındakı münasibətlərin tənzimlənməsi, onların həyat dəstəyi və sosiallaşması üçün sosial sistemin mahiyyətidir. Məqalədə yerli özünüidarəetmə səviyyəsində sosial təhlükəsizliyin təmin edilməsi ilə bağlı xarici ölkələrin təcrübəsi araşdırılır.

***Açar sözlər:*** *yerli özünüidarəetmə, sosial təhlükəsizlik, xarici ölkələr, hüquqi tənzimləmə, bələdiyyə*

**Naila Gahramanova**
Azerbaijan Academy of Labor and Social Relations
PhD student
nailaqahramanova@mail.ru

## The essence of legal regulation of local self-government and social security management in foreign countries

**Abstract**

Local Self-Government of foreign countries consists of various models and types of local organizations. Differences in the structure of local self-government systems depend on many factors: the political regime, the idea of organizing local power and management prevailing in the country, the state structure and administrative-territorial division of the state, national traditions, etc. The formation of local self-government in Azerbaijan takes place in the context of large-scale reforms in the political and socio-economic life of society and is largely determined by the state's interest in the developed institution of local self-government, which plays the role of a link between state institutions and the population. The main goal of local self-government is to unite the efforts of the local population to solve local issues, which, as a result, ensures the democratization, stability and integrity of our state.

As for social security, the protection of life, health, well-being, human rights and freedoms is the main, direct goal here. This is the essence of the social system for the regulation of relations between people, their life support and socialization. The article examines the experience of foreign countries in ensuring social security at the level of local self-government.

***Keywords:*** *local self-government, social security, foreign countries, legal regulation, municipality*

## Giriş

Yerli özünüidarəetmə və idarəetmə orqanlarının hüquqi və faktiki statusunun müxtəlif aspektləri dünyanın müxtəlif ölkələrinin hüquqşünaslarının daim diqqət mərkəzindədir. Əsas özünüidarəetmə institutları ilə bağlı konsensus yoxdur və ola da bilməz, lakin yerli hakimiyyət və özünüidarəetmə orqanlarının fəaliyyətinin ən vacib formaları barədə sabit fikirlər mövcuddur.

**Yerli özünüidarəetmə orqanları** -birbaşa vətəndaşlar tərəfindən seçilən orqanlardır.

**Yerli idarəetmə** isə mərkəzi hakimiyyət tərəfindən təyin olunan orqanlardır.

Bu, onların əsas fərqidir: özünüidarəetmə-seçilmiş orqanlar, idarəetmə-təyin olunanlar. Ancaq seçilmək yerli özünüidarə orqanlarına xas yeganə keyfiyyət deyil. Yerli özünüidarəetmə orqanları yalnız seçilməli deyil, həm də müəyyən bir səlahiyyət kompleksinə sahib olmalıdırlar, müəyyən bir müstəqillik, yəni real hüquqlara sahib olmalıdırlar.

Yerli orqanların səlahiyyətləri, bir qayda olaraq, xüsusi normativ aktlarda müəyyən edilir. Bir sıra xarici konstitusiyalarda yerli özünüidarəetmə ilə bağlı fəsillər və ya ayrı-ayrı maddələr var. Bir qayda olaraq, bu cür fəsillər həcmcə kiçikdir və mövcud qanunvericiliyə istinadlar ehtiva edirlər. Məsələn, **Yaponiya** Konstitusiyasında "yerli özünüidarəetmə"adlı 8-ci fəsil var (Maklakov, 1996: 305). Bu fəsildə dörd maddə mövcuddur (maddə 92-95). Buraya yalnız yerli özünüidarəetmə ilə bağlı əsas prinsiplər və müddəalar daxildir. Bildirilir ki, ölkədə belə orqanlar var və onların işi qanunla müəyyən edilir, publik hakimiyyət orqanlarının əsas vəzifəli şəxsləri əhali tərəfindən seçilir, yerli orqanlar öz əmlaklarını idarə etmək hüququna malikdirlər. Müəyyən bir yerli orqana tətbiq olunan xüsusi qanun, parlament tərəfindən yalnız bu yerli orqanın ərazisində yaşayan seçicilərin əksəriyyətinin razılığı ilə verilə bilər (İnako, 1999: 147).

**İtaliya** Konstitusiyasının "Bölgələr, vilayətlər və kommunalar" adlı V-ci bölməsi vardır. Bu, yeri gəlmişkən, olduqca özünəməxsus bir müddəadır: parlament - ümumdövlət orqan – müəyyən bir ərazinin sakinlərinin fikirlərini nəzərə almalıdır, əgər qanun onların maraqlarını əhatə edirsə (Maklakov, 2003: 271). Bu bölmə əsasən sahələrin hüquqi vəziyyətinin tənzimlənməsinə həsr edilmişdir. İtaliyadakı bölgələrin statusu olduqca spesifikdir. *Bölgə* – böyük bir regiondur, İtaliyadakı bölgələr muxtar və adi statuslu olurlar. Göstərilən vahid "yerli" inzibati ərazi vahidi və orqanlar anlayışına tamamilə uyğun gəlmir və burada orqanların daha əhəmiyyətli statusu vardır. *Vilayət* və *kommunaların* orqanlarına gəldikdə, İtaliya Konstitusiyasında onlar haqqında çox az məlumat verilir: "vilayətlər və kommunalar respublikanın ümumi qanunları ilə müəyyən edilmiş prinsiplər çərçivəsində muxtar qurumlardır" (maddə 128); "vilayətlər və kommunalar həm də dövlətin regionlara bölgüsünün ərazi vahidləridir" (maddə 129). Həmçinin qeyd edilir ki, ətraflı hüquqi tənzimləmə qanunlarla müəyyən edilir.

**Almaniya** qanunvericiliyi yerli özünüidarəetmə və idarəetmə problemlərini kifayət qədər ətraflı tənzimləyir. Bu problemə həsr olunmuş bir neçə maddə Federal Konstitusiyada — Almaniyanın əsas Qanununda yer alır. 28-ci maddədə deyilir ki, *torpaqlarda, rayonlarda, icmalarda* xalqın ümumi, birbaşa, azad, bərabər və gizli seçkilərlə yaradılan nümayəndəliyi olmalıdır. Həmçinin burada deyilir ki, icmalara qanun çərçivəsində, öz məsuliyyəti altında, yerli icmanın bütün işlərini tənzimləmək hüququ verilməlidir. İcmalar yerli səviyyəli ərazi vahidləri kimi başa düşülür. İcmalar və onların birlikləri haqqında 3-ci maddənin 105-ci bəndində də bəhs edilir (4). Ancaq Almaniya qanunvericiliyə baxsaq, yerli özünüidarəetmə məsələsi torpaqlar səviyyəsində çox ətraflı şəkildə tənzimlənir. Almaniyada hər bir torpağın öz Konstitusiyası var və hər bir torpaqda yerli özünüidarəetmə ilə bağlı xüsusi qanunlar qəbul edilir. Beləliklə, məsələn, Baden-Vürtenberq torpaqlarının icmaları haqqında həcmli bir müddəa mövcuddur (5).

"Ərazi kollektivləri haqqında"12-ci bölməni ehtiva edən Fransa Konstitusiyası yerli hakimiyyət orqanları haqqında məsələni son dərəcə lakonik formada tənzimləyir. "Ərazi kollektivləri haqqında" 12-ci bölməni ehtiva edən **Fransa** Konstitusiyası, yerli orqanlara aid edilə bilən Fransanın yalnız iki inzibati vahidindən bəhs edir: "respublikanın ərazi kollektivləri *kommunalar, şöbələr, xarici ərazilərdir*. Digər ərazi kollektivləri qanunla yaradılır. Bu kollektivlər qanunla nəzərdə tutulmuş şərtlərə uyğun olaraq seçilmiş orqanlar tərəfindən sərbəst idarə olunur" (6). Fransız Konstitusiyası yalnız hansı inzibati vahidlərin olduğunu göstərir və bu vahidlərdə olması lazım olan orqanların

seçilmə prinsipini müəyyənləşdirir. Qanuna istinad edilir və fransız özünüidarəetməsinin bütün məsələləri qanunlarla tənzimlənir.

**İspaniya** və **Yunanıstan** konstitusiyalarında "yerli özünüidarəetmə" ifadəsi yoxdur. Orada *"yerli administrasiya"* kateqoriyası tətbiq olunur. İspaniya Konstitusiyasının "Yerli administrasiya haqqında" fəslində deyilir ki, Konstitusiya hüquqi şəxsin bütün hüquqlarına sahib olan bələdiyyələrin muxtariyyətinə zəmanət verir. Onların rəhbərliyi tərkibində *alkaldlar* və *məsləhətçilərin* də olduğu müvafiq bələdiyyə şuralarına həvalə olunur. Şura üzvləri bələdiyyə əhalisi tərəfindən qanunla müəyyən edilmiş şərtlərlə ümumi, bərabər, sərbəst, birbaşa və gizli səsvermə yolu ilə seçilir. Alkaldlar (bələdiyyə başçıları, merlər) Şura üzvləri və ya əhali tərəfindən seçilir (7).

Qeyd etmək lazımdır ki, bir sıra ölkələrdə *"bələdiyyə", "bələdiyyə orqanı"* termini yerli özünüidarəetmənin seçkili orqanı anlayışına bərabərdir. ABŞ və İngiltərədə yalnız şəhər orqanları, digər ölkələrdə isə istənilən seçkili orqanlar bələdiyyə orqanları adlanır.

Yunanıstan Konstitusiyasında (maddə 102) deyilir ki, yerli işlərin idarə edilməsi yerli hakimiyyət orqanlarına məxsusdur. Daha sonra yerli idarəetmə orqanlarından danışılır. Zənnimizcə, yunan qanunvericiliyinə görə, yerli idarəetmə və yerli hakimiyyət anlayışları eyniləşdirilir. Hər halda, 2-ci maddənin 102-ci bəndində deyilir: "yerli idarəetmə orqanları inzibati müstəqillikdən istifadə edirlər. Onların hakimiyyət orqanları ümumi və gizli səsvermə yolu ilə seçilir" (8).

Bunu belə başa düşmək lazımdır ki, yerli idarəetmə və yerli hakimiyyət orqanları seçilmiş orqanlardır, faktiki olaraq bunlar özünüidarəetmə orqanlarıdır. Yunan Konstitusiyası yerli özünüidarəetmə üzərində dövlət nəzarətinin həyata keçirilməsinin mümkümlüyünü nəzərdə tutur (8).

Beləliklə, dünyanın müxtəlif ölkələrində mövcud olan terminologiyanın olduqca özünəməxsus olduğunu görürük. Eyni orqanlara administrasiya, idarəetmə orqanları və özünüidarəetmə orqanları deyilə bilər. Gördüyümüz kimi, bu cür orqanlar demək olar ki, hər bir xarici ölkədə mövcuddur.

Qeyd etmək lazımdır ki, 15 oktyabr 1985-ci ildə **Yerli İdarəetmə haqqında Avropa Xartiyası** qəbul edildi. Avropa Şurasına üzv dövlətlər üçün məcburi olan bu Xartiya yerli özünüidarəetmənin ən vacib konstitusion və qanuni əsaslarını təsbit edir. Burada deyilir ki, yerli özünüidarəetmə prinsipi ölkə qanunvericiliyində və mümkünsə ölkə Konstitusiyasında tanınmalıdır. *Yerli özünüidarəetmə* dedikdə, yerli özünüidarəetmə orqanlarının dövlət işlərinin əhəmiyyətli bir hissəsini tənzimləmək və idarə etmək, qanun çərçivəsində hərəkət edərək, öz məsuliyyəti və yerli əhalinin maraqlarına uyğun olaraq hüququ və real qabiliyyəti başa düşülür. Bu hüquq sərbəst, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət şuralar və ya iclaslar tərəfindən həyata keçirilir. Şuralarda və ya iclaslarda onlara hesabat verən icra orqanları ola bilər (9).

Avropa Yerliözünüdarəetmə Xartiyasının təsbit etdiyi çox vacib bir prinsip xüsusilə qeyd edilməlidir. Onun mahiyyəti ondan ibarətdir ki, qanunla müəyyən edilmiş həddə olan yerli özünüidarəetmə orqanları öz səlahiyyətlərindən kənara çıxmayan və başqa bir orqanın səlahiyyətlərinə aid edilməyən hər hansı bir məsələdə öz təşəbbüslərini həyata keçirmək üçün tam fəaliyyət azadlığına malikdirlər. Nəticə etibarı ilə müstəsna səlahiyyət prinsipi sabitlənir və bu orqanlar üçün müəyyən bir müstəqil səlahiyyət sahəsi ayrılır.

Beləliklə, yerli özünüidarəetmə orqanlarının və ümumiyyətlə özünüidarəetmənin iki əsas prinsipini qeyd etmək olar. Bu seçim və müəyyən hüquqlar kompleksidir. Yerli özünüidarəetmə orqanlarının öz səlahiyyətləri, kifayət qədər real hüquq və imkanları olmalıdır.

Səlahiyyətlərin həcmi və müxtəlif ölkələrdə bələdiyyə orqanlarına hüquqların verilməsi üsulu çox fərqlidir. Bəzi ölkələrdə (Fransa) qanunvericilik yerli seçilmiş orqanların səlahiyyətlərini çox ətraflı tənzimləyir və səlahiyyətlərini aşmamalarını təmin edir (əks halda dövlət onların işinə müdaxilə edir).

**Səlahiyyət** – yalnız qanunda açıq şəkildə göstərilən hüquqlar dairəsidir. Bəzi digər ölkələrdə (AFR) qanunda müəyyən edilmiş bir sıra məsələlər sadalanır, lakin bəzi hallarda yuxarı hakimiyyət

bu səlahiyyətlərdən kənara çıxmağa imkan verir və "qalıq" səlahiyyətlər yerli özünüidarəetmə tərəfindən istifadə edilə bilər (Knemayer, 1995: 107).

Özünüidarəetmə orqanlarının səlahiyyətləri şərti olaraq ilkin və ikinci dərəcəliyə bölünə bilər.

*İlkin səlahiyyətləri* həmçinin lokal işlər adlandırmaq olar: küçələrin təmizliyi, tikinti işlərinin düzgünlüyü, məktəb təhsili sistemi, səhiyyə orqanları, parklar, meydanlar, evsizlərə, yaşlılara qayğı və s.

*İkinci dərəcəli səlahiyyət*- yerli orqanların, əksər hallarda, yuxarı orqanların tapşırığı ilə yerinə yetirilən işlərdir: seçicilərin, çağırışçıların qeydiyyatı, müdafiə xarakterli tədbirlər- yəni birbaşa yerli işlərə aid olmayan və daha çox mərkəzi hakimiyyət orqanlarının marağında olan məsələlər. Xarici ölkələrin yerli orqanlarının səlahiyyətlərinin həcmi təhsil, yol tikintisi, kommunal xidmətlər və s. kimi vacib sahələr də daxil olmaqla daim artır.

Unitar dövlətlərdə yerli orqanların hüquqları hökumətin qanunları və aktları ilə, federal dövlətlərdə – federasiyanın subyektləri tərəfindən müəyyən edilir. Bəzi hallarda yerli özünüidarəetmə orqanları qanunverici orqanlara ərizə və petisiyalarla müraciət edə bilər ki, onlara əlavə hüquqlar verəcək qanunlar və ya digər aktlar qəbul edilsin. Bəzi əlavə hüquqlar yeni qanunlar qəbul edilmədən, qanunqüvvəli aktlar səviyyəsində də verilə bilər.

Bələdiyyə fəaliyyətinin əsas ***metodları*** birbaşa tənzimləmə və idarəetmədir. **Tənzimləmə fəaliyyəti** ticarət hüququ üçün lisenziyaların verilməsi, məişət xarakterli müxtəlif müəssisələrin, kinoteatrların, teatrların və s. saxlanılması, balıq ovu üçün icazə verilməsi, ticarət qaydalarının yaradılması, tikinti üçün torpaq sahələrinin ayrılması, ictimai yerlərdə davranış qaydalarının yaradılması, küçə yürüşlərinin, mitinqlərin, nümayişlərin keçirilməsinə icazə verilməsi və ya qadağa qoyulmasıdır. Bəzi ölkələrdə bələdiyyələrin öz bələdiyyə polisi var (ABŞ, Kanada, Fransa) (Qubanov, 1999: 421). Yerli orqanların normayaratma fəaliyyəti, bir qayda olaraq, məhduddur və bir aktın dərc edilməsi üçün adətən onun yuxarı orqan və ya hökumət nümayəndəsi tərəfindən təsdiqlənməsi tələb olunur.

**İdarəetmə fəaliyyətinə**- bələdiyyə mülkiyyətini təşkil edən müəssisələrə rəhbərliyi qeyd etmək olar. Adətən bunlar kommunal nəqliyyat, kommunal xidmətlər, məişət xidmətləri göstərən müəssisələridir. Bələdiyyələrə müəyyən mənzil fondu, məktəblər, kitabxanalar, parklar, qocalar evləri aid ola bilər. Müəssisələr kifayət qədər özünəməxsus ola bilər, məsələn, yol nişanlarının istehsalı ilə məşqur ola bilər (şəhər təsərrüfatına xidmət etmək üçün).

Bir sıra ölkələrdə bələdiyyələr səhiyyə ilə məşğul olur, xəstəxanalara, poliklinikalara rəhbərlik edir, işsizlik, yoxsulluq müavinətləri ödəyirlər. Bəzən sənaye müəssisələrində payları və ya səhmləri olur və, təbii olaraq, onlar bu müəssisələrin idarə edilməsində iştirak edirlər.

Bələdiyyə orqanlarının səlahiyyətlərini daha yaxşı anlamaq üçün onlar müəyyən qruplara bölünür.

**1. Maliyyə və iqtisadi fəaliyyət sahəsində səlahiyyətlər.** Bu, yerli büdcənin qəbul edilməsi, habelə səhmlərin buraxılması və ya səhmlərin alınması yolu ilə iqtisadi və sosial layihələrdə iştirakdır. Maliyyə-iqtisadi sahə ən vacib sahədir. Buraya müxtəlif pul vəsaitlərinin yığılması, onların toplanması da daxildir. Pul olmadan heç bir iş olmur, buna görə bütün digər səlahiyyətlər bu sahədəki səlahiyyətlərdən asılıdır.

**2. İctimai asayişin qorunması sahəsində səlahiyyətlər.** Artıq qeyd etdiyimiz kimi, yerli orqanlar və onların icra komitələrinin idarəetməsində patrul və mühafizə xidməti ilə məşğul olan yerli polis qüvvələri də mövcud olur. Yerli icra orqanlarının rəhbərinə tez-tez polis başçısı funksiyaları verilir. Məsələn, Fransada prefekt yalnız ümumi inzibati planın əsas vəzifəli şəxsi deyil, həm də baş polisdir. Yerli icra orqanlarının rəhbərləri ilkin araşdırmaya, istintaq, axtarış, cinayətkarların tutulması kimi işlərə rəhbərlik edə bilərlər. Bəzi hallarda onlar polis funksiyalarına malik deyil, və bu məsələlər üçün polis işçilərini işə qəbul edirlər (Qubanov, 1999: 450).

**3. Bələdiyyə orqanlarının kommunal xidmətlər, abadlıq və ətraf mühitin qorunması sahəsində səlahiyyətləri.** Buraya nəqliyyatın inkişafı, yol tənzimlənməsi, yerli yol tikintisi, şəhərlərin sanitar vəziyyəti daxildir. Bu, təbiəti mühafizə haqqında qanunvericiliyinin, suyun və havanın çirklənməsinə qarşı mübarizənin həyata keçirilməsinə nəzarətdir. Su təchizatı, işıqlandırma,

tullantıların təmizlənməsi və s. vətəndaşları çox narahat edir, çünki şəhərlərin böyüməsi, yüz minlərlə, milyonlarla insanın yaşadığı böyük meqapolislərin yaradılması həmişə onların normal və sağlam olmasını təmin etmir. Buna görə də bu sahə yerli orqanların əsas vəzifəsidir, və insanlar bu məsələnin həllini onlardan gözləyirlər.

**4. Sosial sahədə səlahiyyətlər.** Burada, ilk növbədə, yoxsullara, ahıllara, əlillərə yardım sahəsi qeyd edilir: pulsuz yeməkxanalar, evsizlər üçün tibbi yardım, qocalar evləri, xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün evlər. Bundan əlavə, bir sıra ölkələrdə bələdiyyə orqanları ucuz mənzillərin tikintisi ilə məşğul olur, sonra isə onları kirayəçilərə güzəştli şərtlərlə satırlar. Sosial sahə-bələdiyyə xəstəxanaları və doğum evləri, bələdiyyə kitabxanaları, uşaq bağçaları və idman meydançalarıdır. Bəzən buraya təhsil sahəsi də daxildir, lakin əksər hallarda bu sahədəki səlahiyyətlər xalq təhsili adlanan ayrıca beşinci qrupa aid edilir (Fenenko, 2016: 39), çünki dünyanın bütün ölkələrində dövlət xalq təhsili sistemi mövcuddur və dövlət məktəbləri vardır. Təhsil ilə bağlı bütün məsələlərə yerli orqanlar nəzarət edir. Onlar məktəblərin inşası, təmiri, məktəb müəllimlərinin maaşları, proqram təminatı və s. məsələlər ilə məşğul olurlar.

Bu fəaliyyət istiqamətləri xarici ölkələrin yerli özünüidarəetmə orqanları üçün əsas və ən vacib sahələrdir.

Səlahiyyətləri həyata keçirmək üçün ***maliyyə*** lazımdır. Bəs yerli özünüidarəetmə orqalarının gəlir mənbəyi haradır, onlara pul vəsaitləri haradan daxil olur? Bu problemi nəzərdən keçirərkən ilk növbədə *vergilər* qeyd edilir. Yerli və ya bələdiyyə vergiləri mövcuddur. Onların arasında:

a) bələdiyyə gəlir vergisi;
b) torpaq dəyəri vergisi;
c) kampaniyaların gəlir vergisi;
d) əmlak vergisi (ev sahiblərinin, ev təsərrüfatlarının və torpaq sahələrinin sahiblərinin ödədikləri vergi).

Bir sıra ölkələrdə satış vergisi var, burada hər bir alışdan şəhər büdcəsinin xəzinəsinə müəyyən faiz tutulur.

Əsas gəlir mənbəyi *dövlət subsidiyalarıdır*, yəni dövlət büdcəsindən ödənişlər.

Subsidiyaların üç növü vardır:

a) ümumi subsidiyalar (məqsədli deyil, müntəzəm olaraq ödənilir);
b) məqsədli subsidiyalar da müntəzəm olaraq ödənilir, lakin xüsusi məqsədlər üçün (təhsil, mədəniyyət və s.);
c) ayrı-ayrı bələdiyyələr, şəhərlər və s. üçün xüsusi subsidiyalar.

Gəlir mənbələrinin üçüncü qrupu ticarət, xüsusi tədbirlər, tikinti və s. üçün icazələrinin verilməsidir. Hər bir icazə ödənişlidir, və bu səbəbdən də yerli büdcənin gəlir mənbəyidir.

Bundan əlavə, dördüncü qrup da mövcuddur-*istehlakçı ödənişləri*. Bunlar su üçün ödənişlər, tullantıların çıxarılması və məhv edilməsi və s. üçün edilən ödəmələrdir. Bəzi hallarda yerli orqanlar kredit alır, baxmayaraq ki, kreditlər nadir hallarda və faizlə verilir. Onların bir çatışmayan cəhəti var: kreditlər qaytarılmalıdır.

## Nəticə

Beləliklə, xarici ölkələrin təcrübəsinin qısa təhlili göstərir ki, yerli özünüidarəetmə orqanları, yerli hakimiyyətin fəaliyyət və formalaşma qaydası, səlahiyyətlər və funksiyaların həyata keçirilməsi, yerli idarəetmənin maliyyələşdirmə sistemləri yerlərdə sosial sabitliyin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir, vətəndaşların həyatını, qismən də olsa, sosial cəhətdən təhlükəsiz edir.

Fikrimizcə, respublikamızda yerli özünüidarəetmənin daha effektiv fəaliyyət mexanizmlərinin işlənib hazırlanması üçün qərb təcrübəsindən yararlanmağa dəyər.

## Ədəbiyyat

1. Maklakov, V.V. (1996). Konstitucyy zarubezhnikh stran. Moskva: BEK, 305 s.
2. Tsuneo, I. (1999). Sovremennoye pravo Yaponyy. Moskva, 147 s.
3. Maklakov, V.V. (2003). Sbornik Konstitucyy zarubezhnikh gosudarstv. Moskva: Volters Kluver, 271 s.
4. https://izak.ru/img_content/
5. http://vasilievaa.narod.ru/gu/
6. http://library.khpg.org/files/docs/1398678879.pdf
7. https://legalns.com/download/books/cons/spain.pdf
8. https://www.learnaboutgreece.gr/russian/section1-4.php
9. https://e-qanun.az/framework/1026
10. Knemayer, F.L. (1995). Organizaciya mestnogo samoupravleniya v Bavaryy. Moskva, 107 s.
11. Gubanov, A.A. (1999). Policiya zarubezhnikh stran. Organizacionno-pravoviye zhsnzhvi, strategiya i taktika deyatelnosti. Moskva: MAEP, 421-450 s.
12. Fenenko Y.V. (2016). Municipalniye sistemi zarubezhnikh stran: pravoviye voprosi socialnoy bezopastnosti. Moskva: MGIMO-Universitet, 39 s.

Göndərilib: 01.06.2023 Qəbul edilib: 22.08.2023

DOI: https://doi.org/10.36719/2663-4619/94/39-43

**Nəcəf Qasımov**
Qərbi Kaspi Universiteti
magistrant
ORCID 0000-0002 0269-7927
najafgasimov@mail.ru

# SOSİAL SAHİBKARLIQ VƏ DÖVLƏTİN SOSİAL SAHİBKARLIQ ÜZƏRİNDƏKİ ROLU

## Xülasə

Sahibkarlığın növlərindən biri də sosial sahibkarlıqdır. Günümüzdə artmaqda olan sosial sahibkarlıq insanların sosial ehtiyaclarını qarşılamağa xidmət edir. Sosial sahibkarlığı digər sahibkarlıq növlərindən fərqləndirən gəlir əldə etmək məqsədinin olmamasıdır. Bir çox müxtəlif növləri olan sosial sahibkarlıq təkcə insanların marağın çəkmir həmçinin dövlətin, universitetlərin də maraq dairəsindədir. Dövlət sosial sahibkarlara dəstək göstərərək onları daha da həvəsləndirir. Dünyada bir çox dövlət qurumları sosial sahibkarlarla yaxından maraqlanır. Qonşu dövlət olan Türkiyədə Türkiyə Cümhuriyyətinin yaranması ilə ölkədə sahibkarlıq sahəsində bir sıra irəliləyişlər baş vermişdir. Türkiyə Cümhuriyyətində Dövlət və bələdiyyə idarələri sosial xidmətlər göstərilməsi üçün bir sıra yeni sahələr yaratmışlar. Yaşlılar üçün xidmətlər:Şəhəriçi ödənişsiz nəqliyyat xidməti, ödənişsiz müayinə, qocalar evi, psixoloji məsləhət xidmətləri,dərman və qida vasitələri və.s. Azərbaycanda da həmçinin dövlət sosial sahibkarlığa xüsusi diqqət ayırmaqdadır. Bunun üçün 2018-ci ildə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) egentliyi yaradılmışdır. Bu qurum az təminatlı ailələrə,şəhid,qazi ailələrinə təmənnasız xidmət edir. Onların güzəştli xidmətlərdən (müalicə, putyovka, səyahət və s.) yararlanmasını təmin edir.

***Açar sözlər:*** *sahibkarlıq, sahibkar, sosialsahibkarlıq, "DOST" agentliyi*

**Najaf Gasimov**
Western Caspian University
master student
ORCID 0000-0002 0269-7927
najafgasimov@mail.ru

# Social entrepreneurship and the state's role in social entrepreneurship

## Abstract

One of the types of entrepreneurship is social entrepreneurship. Social entrepreneurship, which is growing today, serves to meet people's social needs. What distinguishes social entrepreneurship from other types of entrepreneurship is the absence of the goal of obtaining income. Social entrepreneurship, which has many different types, is of interest not only to people, but also to the state and universities. The state supports social entrepreneurs and further encourages them. Many government agencies around the world are closely interested in social entrepreneurs. With the establishment of the Republic of Turkey in neighboring Turkey, a number of advances in the field of entrepreneurship have taken place in the country. State and municipal administrations in the Republic of Turkey have created a number of new areas for the provision of social services. Services for the elderly: free intercity transportation service, free examination, nursing home, psychological counseling services, medicine and food products, etc. In Azerbaijan, the state pays special attention to social entrepreneurship. For this purpose, the Sustainable and Operative Social Security Agency (DOST) agency was established in 2018. This institution provides free services to low-income families, families of martyrs and veterans. It ensures that they benefit from discounted services (treatment, travel, etc.).

***Keywords:*** *entrepreneurship, entrepreneur, social entrepreneurship, "DOST" agency*

## Giriş

### I.Sosial sahibkarlıq.

### 1.1 Sosial sahibkarlıq anlayışı.

İnformasiya cəmiyyətinə keçidlə daha çox əhəmiyyət qazanan sahibkarlıq anlayışı orta əsrlərdən bu günə qədər bir çox sahədə işlənmişdir.Bir çox tətqiqatçınında müəyyən etməyə çalışdığı konsepsiya olaraq sahibkarlıq həm iqtisadiyyat həm də biznes ədəbiyyatında ən maraqlı mövzulardan biri olmuşdur (Arıkan, 2004). Sahibkarlıq fəaliyyəti nəticəsində ortaya bir çox yeni terminlər çıxmışdır. Bu terminlər fondlar, qeyri-hökumət təşkilatları,müəssisələr və.s yüksəlişin və inkişafın əsasını təşkil edir. Xüsusi olaraq azad sahibkarlıq müəssisələrində sahibkarlara böyük ehtiyac vardır. Son illərdə artmaqda olan sosial sahibkarlıq, sahibkarlığın xüsusi tətqiat sahəsinə çevrilən növlərindən biridir (Müftüoğlu, Durukan, 2004).

Günümüzdə sahibkarlara həyatın bütün sahələrində rast gəlmək mümkündür. Başqa sözlə, sosail sahibkarlıq öz biznesini qurmaqdan və ya kiçik biznesə sahib olmaqdan kənar sosial hadisədir. Bu səbəbdən sahibkarlıq anlayışı yalnız kommersiya mənasında və sahəsində başa düşülməməlidir. Sosial sahibkarlığa müxtəlif təriflər verildiyi kimi onun müxtəlif növlərinədə rast gəlmək mümkündür. Bunlar (Arıkan, 2004; Thompson 1999).

- Qadın sahibkarlığı,
- Akademik sahibkarlıq,
- Daxili sahibkarlıq,
- Sosial sahibkarlıq,
- İncəsənət sahibkarlığı,

Son illərdə özəl, dövlət və qeyri-kommersiya sektorlarında sosial sahibkarlıq anlayışı sürətlə yayılmaqda və bu sektora maraq günü-gündən artmaqdadır (Johnson, 2000). Sosial sahibkarlıq yeni bir anlayış kimi görünə bilər lakin sosial sahibkarlığın təməlində yatan məntiq kifayət qədər köhnədir. Cəmiyyət boyu hər zaman sosial sahibkarlar mövcud olub (Dess, 2001). Son illərdə sosial problemlərin həllində sosial sahibkarlıq mühim bir vasitə kimi görülməyə başlamışdır. Gün keçdikcə sosial problemlər artmağa davam edir və əhali bu sosial ehtiyacları ödəyə bilmir, bunun nəticəsində sosial sahibkarlığın dəyəri gündən-günə yüksəlir (Ercan, 2016). Sosial sahibkarlıq müəəsisələri əsasən mənfəət əldə etməkdən çox sosial fayda yaratmağa üstünlük verirlər. Fərqli sənaye sahələri arasındakı sərhədlər zaman irəlilədikcə yox olmağa başlayır və bu sənayelərin yaratmağa çalışdığı sosial faydalar fərqlidir. Turizm sənayesidə bu sahələrdən biridir. Son dövrlərdə fərdlərin və qurumların sosial fayda yaratmaq səyləri onların əsas vəzifələrindən birinə çevrilmişdir (Şalvarcı, 2020).

### 1.2 Sosial sahibkarlığın tərifi.

Sosial sahibkarlıq anlayışı müxtəlif tətqiqatçılar tərəfindən müxtəlif cür izah edilmişdir. Bir qrup tətqiqatçılar sosial sahibkarlığı alternativ maliyyə strategiyaları araşdırmaq və sosial dəyər yaratmaq üçün layihə, plan və gəlir əldə etmək məqsədi daşımayan bir sahibkarlıq növü kimi görürlər. İkinci qrup tətqiqatçılar isə sektorlar arası əməkdaşlıqla məşğul olan kommersiya müəssisələrikimi görür. Üçüncü qrup tətqiqatçılara görə isə sosial sahibkarlıq sosial yeniliyi dəstəkləyir və sosial problemleri azaldır (Mair, Marti, 2006: 36; Dess, 2001).

**Cədvəl 1.**
**Dünyanın ən məşhur sosial sahibkarı və sosial sahibkarlığı.**

| Sosial sahibkar | Sosial sahibkarlıq | Sahibkarlıq mövzusu | İnkişafı |
|---|---|---|---|
| Bill Drayton | Ashoka | Dünyadakı sosial sahibkarlara kömək etmək | 73 ölkədə 2143 dən çox sponsor ilə bir beynəlxalq qurumdur |
| Muhammed Yunus | Grameen Bank | Mikro maliyyə və sosial kapitalizmi inkişaf etdirmək | 1983 ildən bu yana 10 milyon dollardan artıq gəlir və 2006 Nobel Mükafatı |

| | | | |
|---|---|---|---|
| Black Mycoskie | TOMS | Ehtiyacı olan uşaqlara bir cüt ayaqqabı | 2011-ci ildə kampaniya genişləndi |
| Scott Harrison | Charity: Water | Təmiz su ilə təminat | 2011-ci ildə 100% böyümə oldu və 17 ölkəyə yayıldı. Forbes ən yaxşı sosial sahibkarlıq siyahısı 201 |
| Jefferey Hollender | Seventh Generation | Təmizlik, kağız və şəxsi qulluq | 1998-ci ildən bu yana fəaliyyət göstərən sahibkarlıq 2010-cu ildə 150 milyon dollardan çox gəlir əldə etmişdir |

**Mənbə: The 10 Greatest Social Entrepreneurs of All Time | Socialnomics**

**1.3 Sosial sahibkarlığın mənfəət yönümlü sahibkarlığdan fərqi.**

Sosial sahibkarlığın digər sahibkarlıq növlərində fərqi qazanc məqsədi güdməməsidir. Sosial sahibkarlıqda əsasən cəmiyyətin ehtiyacları üçün həll yolu axtarılır, mənfəət yönümlü sahibkarlıqda isə əsas məqsəd fərd üçün daha çox gəlir əldə etməkdir. Ticari sahibkarlıqda daha çox sahibkar üzərinə risk götürür, bütün əmanətlərini bir işə qoyarkən qazana və ya zərər çəkə bilər ancaq sosial sahibarlıqda böyük risklər yerinə cəmiyyətə fayda verən sahələrə diqqət yetirilir və xərclənən büdcədən cəmiyyət üçün istifadə olunur.

**Cədvəl 2.**
**Sahibkar və sosial sahibkar arasındakı fərqlər.**

| SAHİBKAR | SOSİAL SAHİBKAR |
|---|---|
| Onlar yeni ehtiyaclara diqqət yetirməyə meyillidirlər. | Yeni yanaşmalar vasitəsilə daha effektiv xidmət göstərməyə çalışırlar. |
| Səhmdarlar və ya öz adlarından risk alırlar. | Maraqlı tərəflər adına risk alırlar. |
| İş və ya biznes yaratmağa meyillidirlər. | Dəyişiklik yaratmağa çalışırlar. |
| Sahibkarı motivasiya edən əsas amil yeni biznesə başlamaq və qazanc əldə etmək ideyasıdır. | Onların əsas məqsədi qazanc əldə etmədən sosial dəyişiklik etmək və müştəriləri inkişaf etdirməkdir. |
| Sahibkarların riskə üstünlük vermə səbəbi pul və prestij qzanmaqdır. | Sosial sahibkarlar cəmiyyət üçün risk götürən insanlardır. |
| Əsas məqsədi qazanc əldə etməkdir. | Mənfəət məqsəd daşıyan fəaliyyətlərdə iştirak edə bilərlər ancaq bunu məqsədlərə çatma üçün edirlər. |

**Mənbə: Johnson, 2000: 8; Barendsen ve Gardner, 2004: 43; Hasan, 2005: 3; Roper ve Cheney, 2005: 95; Sharir ve Lerner, 2005: 7; Akdoğan ve Cingöz, 2006: 51-52; Austin vd., 2006: 6-dan araşdırılaraq yazılmışdır.**

**1.4 Sosial Sahibkarlığın/Sahibkarların Xüsusiyyətləri.**

Sosial sahibkarlğın xüsusiyyətləri aşağıdakılardır.

**1.4.1 Şəxsi xüsusiyyətlər.**

Kommersiya sahibkarlarını təsvir edən şəxsi bəzi xüsusiyyətlər sosial sahibkarları da təsvir edə bilir. Ən mühüm fərq mənfəət məqsədi ilə hərəkət etməmələri olsa da, sosial sahibkarlar aşağıdakı şəxsi xüsusiyyətlərlə də fərqlənir.

- İrəli səviyyə xəyal gücü
- İnandırıcı
- Dəyişikliyə açıq
- İlham qaynaqlı
- Optimist
- Uğur üçün güclü motivasiya olan
- Problem həlledən
- Yaradıcı
- Bacarıqlı
- Elastik

• Uzaqgörən
• Fürsətçi
• Yüksət tolerantly
• Enerjili
• Lider
• Özünə güvənən
• Yalnışdan qorxmayan
• İddialı
• Stresə dayanıqlı
• Zamanı idarə edə bilən

**1.4.2 Proseslə əlaqəli xüsusiyyətlər.**

Sosial sahibkarlar sosial dəyişikliklə nəticələnən bir sıra proseslərin yaranması üçün fəal iştirak edirlər. Onlar istifadə sahələrini genişləndirərək mövcud resurslardan səmərəli və yenilikçi şəkildə istifadə edirlər. Nəticədə yeni sosial dəyişikliklər yaranır.

**1.4.3 Struktur xüsusiyyətlər.**

Sosial sahibkarlıq sosial missiyanı öz üzərinə götürməyə və həyata keçirməyə, rəqabətçilik qabiliyyətinə malik olmalıdır. Bu quruluş uzaqgörən, çevik,fəal, sürətli düşünmə qabiliyyətinə malik olana liderə sahib olmalıdır.Lider ani və sürətli qərar qəbil etmə bacarığına malik və stresə davamlı hər cür mühitə adaptasiya olan və yeniliklərə uyğunlaşan biri olmalıdır (Danko, Brunner, Kraus, 2011: 82-91).

**II.Sosial sahibkarlığın əhatə dairəsi və fəaliyyət sahəsi.**

Tam şəkildə tərifinin olmaması sosial sahibkarlığın müxtəlif mənalarına görə təsnifləşdirilməsini qaçınılmaz edir. Sosial sahibkarlığın çox yönlü olması onun fəaliyyət sahəsinin də müxtəlif olmasına gətirib çıxarır.

**2.1 Sektorlar üzrə sosial sahibkarlıq.**

Bu başlıq altında dəyərləndirmə aparmaq üçün sosial sahibkarlığa geniş prizmadan baxmaq lazımdır. Bu perspektivə görə sosial sahibkarlıq aşağıdakı sahələrdə görünə bilməkdədir (Thompson, 2002).

- Cəmiyyətə faydalı iş görmək arzusu ilə ianə verən kommersiya məqsədli müəssisələr
- Sosial məqsədlər üçün yaradılmış lakin biznes kimi müəyyən edilə bilən sosial müəssisələr
- Könüllü sektor

**2.2 Səlahiyyət sahəsinə görə sosial sahibkarlıq.**

Sosial müəssisələr səlahiyyətlərinə görə: iqtisadi, siyasi və sosial cəhətdən təsnif edilir. Bu üç təsnifdən iqtisadi və sosial bir-birinə əks anlayışlardır.İqtisadi aspekt mənfəətin bölüşdürülməsini ifadə etdiyi halda sosial aspekt mənfəətin bölüşdürülməməsini ifadə edir. Siyasi və sosial aspektlər arasında güclü bağ olub cəmiyyətin rifahının yaxşılaşmasını ifadə edirlər (Mair, Noboa, 2003).

**2.3 Məqsədinə görə sosial sahibkarlıq.**

Müəssisələri iki qrupa ayıraraq araşdırmaq daha əlverişlidir. Mənfəət əldə etmək istəyəv və sosial təsir yaratmaq istəyən müəssislər.Sosial sahibkarlıq müəssisələri heç bir qazanc əldə etmək məqsədi daşımır. Burada əsas məqsəd insanların rifahını yaxşılaşdırmaq üçün xidmət göstərməkdir. Əldə edilən gəlir isə yeniliklərə və daha çox kütləyə xidmətə sərf olunur (Huber, 2004).

**III.Turizmdə sosial sahibkarlıq.**

Daim inkişaf edən strukturları ilə turizm dünya iqtisadiyyatında mühim yer tutur. Turizmin mənfi təsirlərinin əksəriyyəti kütləvi istehlakdan qaynaqlanır.Ümumiyyətlə kütləvi turizm sürətlə dəyişən təbiətinə görə yerli resurslardan asılıdır. Bu turizmin ən həssas növüdür. Kütləvi turizmin mənfi cəhəti onun zaman və məkanda cəmləşməsi ilə bağlıdır. Kütləvi turizmin mövsümilik ilə bağlı olması onun müəyyən vaxtlarda yüksək tələbata səbəb olmasına gətirib çıxardır və bu yerli resursları və insfrakturu həddən artıq yükləyir (Kozak, Martin, 2012: 188-194.).

**3.1 Ekoturizm və kənd turizmi.**

Ekoturizm ətraf mühiti qoruyan və yerli əhalinin rifahını qoruyan təbii ərazilərə həssas səyahət kimi müəyyən edilə bilər. Turizm bazarında təbiətə əsaslanan turizm olaraq təyin olunan ekoturizm davamlı inkişaf vasitəsi kimi görülür. Eko turizmə həssas pozulmamış və ümumiyyətlə az təsirə malik və kiçik miqyaslı qorunan ərazilərdə turizm kimi müəyyən edilə bilər (Haberal, 2015).

**IV. Dövlətin sosial sahibkarlıq üzərindəki rolu.**

Dövlətin sosial sahibkarlığı dəstəklədiyi ölkələr:

1. Azərbaycan 2.Türkiyə 3.Ekvador 4. Meksika

## Nəticə

Azərbaycanda sosial sahibkarlığa xüsusi diqqət ayrılmaqdadır. Bunun üçün 2018-ci ildə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) egentliyi yaradılmışdır. DOST agentliyinin göstərdiyi xidmətlər (Səmra, 2004):

- Sanatoriya – kurort putyovkaları
- Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi
- Özünəqulluq qabiliyyəti olmayan şəxslərin sosial xidmət müəssisələrinə qəbulu
- Əlilliyi olan gənclərin peşə-reabilitasiya mərkəzlərinə qəbul edilməsi

## Ədəbiyyat

1. Arıkan, S. (2004). Sahibkarlıq: Əsas konseptlər və bəzi aktual problemlər. Siyasal Kitabevi, Ankara.
2. Müftüoğlu, T., Durukan, T. (2004). Sahibkarlıq və KOM-lar. Qazi.
3. Thompson, J.L. (1999). The world of the entrepreneur – a new perspective. Journal of workplace learning, 11(6), pp.209-224.
4. Johnson, S. (2000). Literature Review on Social Entrepreneurship Research Associate Canadian Centre for Social Entrepreneurship.
5. DESS, Gregory. (2001). "The Meaning of Social Entrepreneurship". http://www.fuqua.duke.edu/centers/case/documents/dees_sedef.pdf,ss.1-
6. Ercan, S. (2016). Türkiyədə sosial sahibkarlıq və onun təsirlərinin qiymətləndirilməsi (Doktorluq dissertasiyası, Elm və Texnologiya İnstitutu).
7. Şalvarcı, S. (2020). Davamlı Turizmin İnkişafında Sosial Sahibkarlıq: Konseptual qiymətləndirmə. Sosial, insan və inzibati elmlər jurnalı, 3(7), s.535-547.
8. Mair, J., Marti, I. (2006). Social entrepreneurship research: A source of explanation, prediction, and delight. Journal of world business, 41(1), pp.36-44.
9. Danko, A., Brunner, C., Kraus, S. (2011). Social entrepreneurship – An overview of the current state of research. European Journal of Management, 11(1), pp.82-91.
10. Thompson, J.L. (2002). The World of the Social Entrepreneur. The International Journal of Public Sector Management. 15 (5), pp.412-431.
11. Mair, J., Noboa, E. (2003). Emergence of social enterprises and their place in the new organizational landscape.
12. Huber, C. (2004). Social Entrepreneurs and the St. Gallen Management Model (Doctoral dissertation).
13. Kozak, M., Martin, D. (2012). Tourism life cycle and sustainability analysis: Profit-focused strategies for mature destinations. Tourism management, 33(1), pp.188-194.
14. Haberal, H. (2015). Alternativ ekoloji turizm, təbiət turizmi, kənd turizmi, turizmdə yayla turizmi. Detay Nəşriyyatı.
15. Səmra, A. (2004). Sahibkarlıq, əsas anlayışlar və bəzi aktual məsələlər. İkinci nəşr, Ankara.

Göndərilib: 29.06.2023 Qəbul edilib: 19.08.2023

DOI: https://doi.org/10.36719/2663-4619/94/44-49

**İntiqam Hüseynli**
Qərbi Kaspi Universiteti
magistrant
huseynli.2808@gmail.com
Orcid ID:0000-0001-5974-0175

# AZƏRBAYCANDA ENOTURİZM (VİNİTURİZM) POTENSİALI ÜZƏRİNƏ TEORİK BİR ARAŞDIRMA

## Xülasə

Azərbaycan coğrafiyasında şərab istehsalı üzrə ixtisaslaşan bəzi bölgələrdən Göygöl, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ digər bölgələrlə müqayisədə enoturizm (viniturizm) baxımından potensiallı bölgələrdir.Ölkə üzrə fəaliyyət göstərən 28 şərab emalatxanasının böyük bir qismi bu bölgələrdə yerləşir.Yerli coğrafiyada yetişən şabran, alaşanı, qaraşanı, Şamaxı mərəndisi keyfiyyətli şərabın hazırlanmasında istifadə olunan üzüm növləridir. Bu üzüm növləri əsasında hazırlanan "Şamaxı, Mədrəsə, Göygöl, Maralgöl, Çinar, Bakı və s" brendlər altında Azərbaycanda kifayət qədər məşhur şərab çeşitləri hazırlanmışdır. Bu çalışmada əsas məqsəd şərab turizminin Azərbaycanda yerini və irəliləmə yolunu öyrənmək, həmçinin yerli əhalinin şərab qavramını anlaması buradakı əsas aktual məsələlərdəndir

***Açar sözlər:*** *şərabçılıq, üzümçülük, şərab turizmi, emalatxana, dequstasiya, şərab zirzəmiləri, üzüm sortları, enoturizm*

**Intigam Huseynli**
Western Caspian University
master student
huseynli.2808@gmail.com
Orcid ID:0000-0001-5974-0175

## A theoretical study on the potential of enotourism (vinitourism) in Azerbaijan

## Abstract

Goygol, Shamakhi, Aghsu, Ismayilli, Gabala are some of the regions specializing in wine production in the geography of Azerbaijan. Compared to other regions, they are potential regions in terms of enotourism (vinitourism). A large part of the 28 wineries operating in the country are located in these regions. Shamakhi marandis are grape varieties used in the preparation of quality wine. Quite famous wine varieties have been produced in Azerbaijan under the brands "Shamakhi, Madrasa, Goygol, Maralgol, Chinar, Baku, etc." made on the basis of these grape varieties. Learning the way forward, as well as understanding the local population's perception of wine are among the main pressing issues here.

***Keywords:*** *winemaking, viticulture, wine tourism, workshop, tasting, wine cellars, grape, varieties, enotourism*

## Giriş

İnsanların şəraba olan və günü-gündən artan marağı, eyni zamanda şərabın istehsal prosesi şərab turizmini dünyada maraq çəkən bir turizm növünə çevirmişdir. Şərab istehsal edən bölgələr şərab turizminin inkişafı üçün mühüm amillərdəndir. Şərab turizmi üçün gələn qonaqlar həmin ərazilərdə kiçik biznes formalaşdırmaq üçün yeni bazarlar yaradır. Turizmdə rəqabət davamlı artdığı üçün şərab istehsal edən bölgələr turistlərin gözləntilərini qarşılamaq üçün addımlar atır. Burada regionlarin rəqabətə meyillilik amillərinin öyrənilməsi də əsas məsələlərdəndir (Güvən, 2010). Qeyd etmək istərdim ki, regional turizmdə davamlı inkişaf üçün şərabçılıq turizmi tədqiq

edilmişdir. Xüsusi olaraq kənd yerlərində daha çox inkişaf edən şərab turizmi məhz bu ərazilərdəki yerli resurslardan bəhrələnərək ərazinin imicini turizm imkanlarını və cəlbediciliyi daha da artırır. Lakin şərab turizminin ölkə iqtisadiyyatına müsbət təsirləri ilə yanaşı ciddi nəzarət edilmədiyi zaman ekoloji kirliliyə səbəbkar olmaqla yanaşı böyük miqdarda su və enerji tələb edir. Ümumilikdə iş dünya üzrə istixana effekti 0.3% qədər ötürür (Süer, Keskin, 2023). Qədim zamanlarda şərab turizmi yerli ənənələrə və özünəməxsusluğa əsaslanaraq planlaşdırılmamış şəkildə inkişaf edirdi. Müasir dövrümüzdə isə şərab turizmi inkişafın texnologiya ilə planlaşdırılmasına əsaslanır. Hazırda tanıtım səylərini genişləndirərək rəqabətə davamlı şərab turizminin inkişaf modelinin hazırlanması hədəflənir (Emre Yıldız, 2009). Hətta bu mövzu ilə bağlı bir çox araşdırılmalar aparılmış və elmi məqalələr yazılmışdır. Tapıntılara əsasən, turizm ədəbiyyatında şərab turizmi ilə bağlı ilk məqalənin 2002-ci ildə dərc edildiyi və araşdırmaların 2015-ci ilə qədərki proseslərdə dalğalanmaların olduğu müəyyən edilmişdir (Yılmaz, Şahin Yılmaz, 2023). Bu sahənin turizm fəaliyyətində iştirak edən nümayəndələri dörd qrupa bölünür. Bunlar:yeni başlayanlar, həvəskarlar, ekspertlər və fanatiklərdir (Yılmaz, Akay, 2020).

Azərbaycanda xüsusilə müasir dövrdə geniş vüsət alan üzümçülük və şərabçılıq ənələrinin min illərlə ölçülən yaşı mövcuddur. Sovet dövründə tənəzzülə uğramağına baxmayaraq müəyyən vaxtdan sonra ölkəmizdə yeni üzüm plantasiyalarının yaranması və regionlarda yeni şərab zavodlarının fəaliyyətə başlaması şərabçılığın formalaşmasına gətirib çıxardı (Məhərrəmova, 2021).

**Şərabın tarixi və formalaşması.**

Tarixi mənbələrə əsasən üzümün 130 milyon, şərabın kökəni isə 7000 il əvvələ dayanır. Şərabşılığın ilk yaranıb, ixtsaslaşdığı ərazi Mesopotamiya adlandırılmışdır. Mesopotamiya ərazisi hazırki. Misir, Babil, Hitit və Şumerlərin yerləşdiyi ərazidən ibarət olmuşdur. Mesopotamiyanın insanlıq tarixində məskunlaşma üçün seçilən ilk yerlərdən biridir.

**Enoturizm (Viniturizm) əsasında şərabın inkişaf tarixi.**

16-cı əsrdən etibarən Avropa əhalisinin sürətlə artması,daha sonralar turizmin şaxələnməsinə təsir edən sənayə inqilabını yaradan əsas səbəblərdən biri idi. Turist zöqvqlərinin fərqli olması şərab turizmi ilə yanaşı müxtəlif xüsusi maraqlar üçün edilən turizm növlərini meydana gətirdi. Ümumdünya Turizm Təşkilatına görə xüsusi müəyyən edilmiş mövzu ilə bağlı fərdi və ya qrup halında turizm mərkəzlərinə edilən səyahətlərdir. Şərab turizmi - üzüm bağlarına, şərabçılıq zavodlarına və şərab festivallarına və şərab mövzulu bölgələrə səfərlərdən və şərab və şərabçılığa marağı inkişaf etdirmək məqsədi ilə bu bölgələrə gələn ayrı-ayrı şəxslərin və ya qrupların səfərləri nəticəsində yaranan xüsusi maraq turizmidir. İngiliscədə spesifik olaraq şərab istehsalı və üzüm bağlarından ibarət yerlərə “Winescape – şərab landşaftı” deyilir. “Winescape” özlüyündə 3 yerə bölünür: Üzüm bağlarının olması,şərabın istehsal fəaliyyəti və saxlanıldığı zavodlar (Santos, Ramos, Almeida, Santos-Pavon, 2019). Bu baxımdan xüsusi maraq turizminə aid olan şərab turizmi, insanların şəraba, onun istehsalı və mədəniyyətinə maraq olduğu üçün məşhurlaşmışdır. Dünyada şərabçılıq və onun əsasında formlaşamış şərab turizminin həcminə görə nəhəng ölkələr sırasında biz ABŞ,Fransa,İtaliya,Almaniya,Yeni Zellandiyanı xüsusilə qeyd edə bilərik.Xüsusilə də Almaniyada şərabçılıq mədəniyyəti 2000 ildir mövcudluğunu qoruyub (Kym, 2004). Yeni Zelandiyada aparılan araşdırmaya görə; bölgədəki şərab turizmi təcrübəsi ilə bağlı şərab operatorları turizmi nəinki əyləncəli fəaliyyət kimi görür, həm də bütün istehlakçı seqmentlərini cəlb edir.

İştirakçıların şərab yeri ən çox ağızdan ağıza (Ağız sözü) və ya tövsiyələrə üstünlük verildiyi qənaətinə gəlinir. Şərab turisti ilə müsbət münasibətin vacibliyini vurğulayaraq. Belə başa düşülür ki, şərabların qiyməti baha olsa da, bu onların satışlarına təsir etmir (Soydaş, Gürler, 2019). Ümumi tərifdə isə şərab turizmi, şərab istehsalı və istehsal olunan şərabların saxlanıldığı emalatxanalara edilən turistik səfərlərə verilən addır. Şərab turistlərində isə bu turizm növünə maraq yaradan əsas səbəb, şərabı dequstasiya edib eyni zamanda tarixi, mədəniyyəti barədə məlumat əldə etməkdir. İnsanların təhsil səviyyələrindəki artımlar, maddi qazanclar və eyni zamanda insanların dad çeşitlərinin artması nəticəsində şərap turizminə olan maraq və səfər edən turist sayısı artmaqda davam edir.

**Azərbaycanın enoturizm (vinituri zm) üzrə potensialı.**

Azərbaycanda xüsusilə müasir dövrdə geniş vüsət alan üzümçülük və şərabçılıq ənələrinin min illərlə ölçülən yaşı mövcuddur. Sovet dövründə tənəzzülə uğramağına baxmayaraq müəyyən vaxtdan sonra ölkəmizdə yeni üzüm plantasiyalarının yaranması və regionlarda yeni şərab zavodlarının fəaliyyətə başlaması şərabçılığın formalaşmasına gətirib çıxardı (Məhərrəmova, 2021). Xalqın təsərrüfat həyatında bağçılıqla yanaşı üzümçülüyün də rolu olmuşdur. Mədəni üzümün inkişafı cır üzümdən başlayır. Cır üzüm isə mədəni üzümdən fərqli olaraq yarpağı və giləsi kiçik, turş bir dada sahibdir. Cır üzüm Azərbaycan meçələrində bitən bir bitkidir və bu meşələrdə cır üzümün olması lokal coğrafiyanın üzümçülüyə uyğun olduğunu sübut edir.

**İqlim amili.**

Azərbaycan iqlim baxımından kifayət qədər zəngin bir ölkə olduğundan burada üzüm btikisi başda olmaqla mxtəlif növlərdə bitkilər yetişir. Lokal coğrafiya mülayim və subtropik iqlim tiplərinin qovuşduğu ərazini əhatə edir. Bölgələrə əsasən iqlim tipləri müəyyən qədər fərqli olur. Üzüm bitkisi özlüyündə quraqlığa davamlı bir bitkidir və Azərbaycanda yay aylarında iqlimin quraq olmasına baxmayaraq bitkinin becərilməsi və inkişafı mümkündür. Üzümü quraqlığa davamlı edən əsas səbəb köklərinin uzun olub, torpağın dərin qatlarına qədər gedib çata bilməsidir. Bitkinin kökündə olan xüsusi maddənin ifraz olunması ilə onlar torpağın qatlarında olan kiçik daş parçalarını əridərək dərin qatlara nüfuz edə bilirlər. Bu baxımdan bu bitki uzun kökləri vasitəsilə hətta quraq dönəmlərdə belə yeraltı sulardan istifadə edərək inkişaf edir.

**Enoturizm (Viniturizm) üzrə Azərbaycanda potensiallı bölgələr.**

Azərbaycanda enoturizm(viniturizm) inkişafı üçün potensiallı bölgələrə Göygöl, Gəncə, Qəbələ, Ağsu, Şamaxı, Naxçıvan aiddir.Azərbaycan daxilində 28 şərab emalatxanası yerləşir və bu emalatxanaların böyük əksəriyyəti sadalanan bögələrdə fəaliyyət göstərir.

**Gəncə.**

Gəncə şəhəri üzümçülük və şərabçılığın ixtisaslaşdığı bögələrdən biridir. Gəncədə üzümçülük 20-ci əsrdə formalaşıb inkişaf etmişdir.Həmin illərdə yerli şərab keyfiyyət və dad baxımından özünü doğrultduğundan SSRİ-nin bölgələri üzrə ixrac olunmuşdur. "Gəncə Şərab" ASC əsası 1984-cü ildə əsası qoyulmuşdur. Yaradıldığı ildən etibarən keyfiyyətinə və dadına görə seçilmiş şərablar istehsal etmiş, lakin bir neçə il sonra SSRİ daxilində alkoqolizmə qarşı siyasət nəticəsində digər şərabçılıq bölgələri kimi Gəncə də şərab zavodlarını bağlamalı və nəticə etibarı ilə baxımsızlıq ucbatından şərabçılıq demək olar 0-a endi. Müstəqillik illərində artıq Azərbaycan üzümçülük-şərabçılığa yatırımlar etməyə başladı. SSRİ dağıldığı üçün artıq SSRİ tərəfindən qoyulan qayda-qanunlar istənilən sahə üzrə keçərli deyil idi. Azərbaycan üzümçülüyə-şərabçılığa digər şərabçılıq üzrə potensiallı ölkələrlə müqayisədə geridə başlamağına baxmayaraq günümüzdə də bu sahəyə yatırımlar edilərək tinglər əkilir,yüksək keyfiyyətə malik texnoloji avadanlıqlardan istifadə olunur. Hazırda Gəncədə 400 hektarlıq ərazidə şərabçılıq üçün üzüm əkilir. Həmin ərazidə keyfiyyətli üzüm sortları hesab olunan-Mədrəsə, Rkastsiteli, Bayan-Şirə, Cabernet Sauvignon, Chardonnay, Merlot, Pinot, Şiraz, Saperavi üzüm sortları yetişir.

**Şamaxı.**

Şamaxı həm iqlimiminin həm də landşaftının yaratdığı imkanlar üzərindən uzun müddət ərzində keyfiyyətli, dadlı və sevilən şərab növlərinin istehsal mərkəzi olmuşdur. Azərbaycan da ən keyfiyyətli üzüm növlərinin yetişməsindən və bu üzümlər əsasında lokal coğrafiyada kifayət qədər məşhur şərab çeşidlərinin hazırlanmasından dolayı Şamaxı ölkənin üzümçülük-şərabçılıq paytaxtı hesab olunur. Keçən əsrin 70-80-ci illərindən bəri Şamaxı şərab istehsal edən və kənd təsərrüfatı üzərindən iqtisadiyyata qatqısı olan bir bölgədir.Həmin illərdə Şamaxıda 37.000 hektar üzüm bağları var idi. Həmin ərazinin məhsuldarlığı isə 240.000 tondan artıq idi. Daha sonra SSRİ dağılana yaxın üzüm bağları və müəssisələrinin məhv edilməsi,baxımsız qalması digər üzümçülük bölgələri kimi Şamaxının da məhsuldarlığına mənfi təsirini göstərmiş oldu.

Üzümçülük-şərabçılığın dəyəri günümüzdə də unudulmayaraq inkişaf etdirilməsi üçün müəyyən tədbirlər görülür. 2014-cü ildə Şamaxıda 40 hektar üzüm bağı salınmış və 2017-ci ildə məhsul yığılmışdır. Həmin ərəfələrdə isə üzüm bağlarının sahəsi 310 hektara qədər artırılmışdır. Hazırda isə

Şamaxıda ümumi salınmış üzüm bağlarının sahəsi 1700 hektara çatır. Şamaxıda istehsal olunan şərablarda xammal olaraq həm yerli həm də xarici üzüm sortlarından istifadə olunur. Xarici üzümlər əsasən fransız sortu üzümlərdir. Yerli üzümlər arasında isə bir neçə növdən istifadə olunur hansılar ki; "Ağ şanı, Qara şanı, Mədrəsə, Meysəri və Təbrizidir". Şərab hazırlanması mərhələləri arsında önəmli yeri onun fermentasiya edilməsi prosesi tutur. Fermentasiya şərab növünə uyğun olaraq fərqlənir. Qırmızı şərablar 10-30C (selsi) temperaturda 1-2 həftə, ağ şərablar isə 10-20C (selsi) temperaturda 2-4 həftə müddətində palıd çəlləklərdə fermentasiya edilir (Kobrand,wine & spirits).

Şamaxıda üzümçülük-şərabçılıq illərdir davamlı inkişaf etdiyindən artıq turizm destinasiyasına çevrilmişdirş.Şamaxıda həm yerli həm də xarici şərab sevər turistlər üçün şərab turları təşkil olunur. "Şirvan Şərab" adlı şərab turu yerli və xarici şərab sevər turistləri şərabın istehsal olunduğu müəssisə ilə tanışlıqdan həmin şərabın "vintage" üslubda olan zirzəmisində dequstasiyasına qədər xidmətləri təklif edir. "Şirvan Şərab" həm ölkə daxilində həm də beynəlxalq sərgilərdə tanınan "Meysəri" şərablarının istehsalçı brendidir. "Meysəri" şərablarının 3 növü yerli bazarda kifayət qədər tanınır və sevilir. Bu növlər "Məxməri, Mərcan və Sədəf"-dir.

**Göygöl.**

Tarixə nəzər salsaq Göygöl 1860-cı illərdə Yelenendorf adlanırdı.Buna səbəb rusların buraya almanları köçürülməsi idi. Almanların köçürüldüyü ərazi Oğuz tayfasının yaşadığı Xanık kəndi idi. Almanlar məskunlaşmamışdan qabaq da yerli insanlar bağçılıq və üzümçülük fəaliyyəti ilə məşğul idilər. Onlar üzümlərdən şərab hazırlamır yalnız istehlak məqsədi ilə becərirdilər. Almanlar məskunlaşdıqdan sonra isə onlar həmin üzümlər əsasında şərab istehsalına başladılar. 1862-ci ildə Göygöldə almanlar tərəfindən 2 böyük şərab istehsal edən şirkət yarandı. "Forer Qardaşları və Qummel Qardaşları Ticarət Evi" həmin dövrlərdə Göygöldə fəaliyyət göstərən böyük şərab, şampan, konyak istehsal edən şirkətlər idilər. Eyni müəssisə "Kaqor, Köhnə Poertveyn, Ağ süfrə şərabı, Xeres şərabları" istehsal edirdi. Ümumiyyətlə Rus imperiyası dönəmində Azərbaycanda istehsal olunan şərabların böyük hissəsi Azərbaycanın payına düşürdü. 1926-ci ilin statistikasına əsasən Azərbaycanda yığılan üzümün 48%-i Göygöl şərab zavodunda emal edilmişdir. Bu vedrə müəssisənin 13 şərab zirzəmisində 670 min vedrə şərab saxlanılırdı.

19-cu əsrin sonlarında Azərbaycanda isehsal olunan şərablar Almaniya və Hollandiyaya ixracı başlanılmışdır. Bununlada müəssisə Azərbaycandan Avropaya şərab ixrac edən ilk şirkət olaraq tarixə düşmüşdür. Sovet dönəmində "Xanlar Aqrosənaye" kombinatı adı altında fəaliyyət göstərən bu zavod şərab istehsalında ixtisaslaşaraq məhsullarına bütün Sovet Respublikasına göndərirdi. Lakin 1985-ci ildə Mixail Qorbaçovun "Alkoqolizm və sərxoşluqla mübarizə tədbiri haqda" qərarından sonra şərab istehsal edən müəssisə istehsalı dayandırması nəticəsində xarabalığa çevrildi.

Göygöl uzun illər uzümçülüyün və şərabçılığın fəaliyyət göstərdiyi bir bölgədir. Burada 160 ildir fəaliiyət göstərən, şərab, konyak, şampan istehsal edən "Göygöl Şərab Zavodu ASC" yerləşir. Hazırda Göygöl şərab zavodu şərab, brendi və araq (onlarla növ müxtəlifliyində) istehsal edir. Müəssisənin 525 ha üzüm plantasiyası vardır. Məhsulunun əsas hissəsi yalnız Rusiyaya deyil, həmçinin Kanada, İsveçrə, Çin və Hindistana ixrac olunur (Fətəliyev, Heydərov, 2017).

**İsmayıllı.**

İsmayıllıda Azərbaycanda digər üzümçülük-şərapçılıq bölgələri kimi məhsuldarlığına və keyfiyyətinə görə əhəmiyyətlidir. İsmayıllıda yerləşən "Şabiant" şərab zavodu istehsal etdiyi şərablarla təkcə yerli bazarda deyil eyni zamanda Rusiya bazarında da kifayət qədər tanınır. "Şabiant" zavodunun yerləşdiyi coğrafiya,landşaft keyfiyyətli üzümün becərilməsi üçün kifayət qədər əlverişlidir. Zavod 1982-ci ildə İsmayıllıda yaranıb. Sovet dövründə respunlikanın bir çox şəhərlərinə ixrac olunan şərablar istehsal edib. SSRİ dağıldıqdan sonra isə zavod da xaraba qalmış,lakin müstəqillik əldə etdikdən sonra 2010-cu ildə zavod yenilənərək fəaliyyətinə davam etmişdir.

"Şabiant" zavodu Göyçay və İsmayıllı arasında kiçik Hacıhətəm qəsəbəsində yerləşir. Qafqaz və Avropa üzüm sortları olan 250 hektar ərazini əhatə edir. Üzümlər coğrafi baxımdan Böyük Qafqaz dağlarının cənub yamacında,750 metr yüksəkliklərdə iqlim və teruar şəklində yetişdirilir.

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2023 / Cild: 17 Sayı: 9 / 44-49 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 2.255. 2023 / Volume: 17 Issue: 9 / 44-49 e-ISSN: 2708-986X

Qarışıq olmadan əsl şərab dadının hiss olunması üçün 100% monosort şərab istehsal olunur. Hacıhətəmə bir sıra şərab turları təşkil olunur. “Şabiant” şərab turu yerli və xarici turistləri Hacıhətəm qəsəbəsini gəzdirməklə yanaşı eyni zamanda bu coğrafiyada yetişən üzümlərdən hazırlanan şərabların istehsal prosesi ilə tanış olmalarına və dequstasiyasına imkan yaradır. Eyni zamanda burada kiçik qonaq evi olan “Şato Monolit”-də yerləşir. “Şabiant” şəra turununa “Şato Monolit”-də qalıb istirahət etməkdə daxildir. Burada avqustun sonu məhsul bayramı, noyabrın sonunda “Vino Nuovo” (Gənc üzüm) adlı şərab bayramı təşkil olunur. Zavod 2017-ci ildə yerli və beynəlxalq bazarlar üçün “Chabiant” adlı şərabı təqdim etdi. Bu şərab yeni-yeni bazara çıxmasına baxmayaraq, şərabın tarixi 1980-ci illərə dayanır.

**Qəbələ.**

Qəbələ azərbaycanın uzun illər boyu üzümçülük-şərabçılığın olduğu hətta əsrlər əvvələ üzümçülüyə aid arxeoloji tapıntıların aşkar olunduğu bölgəsidir. Burada aşkar olunan üzümçülüyə aid arxeoloji qazıntılar 2300 il əvvələ dayanır. Məhsuldar torpaqların olması və düzgün becərilməsi burada yetişən üzümü və onun əsasında hazırlanan Qəbələ şərabını keyfiyyətli və dadlı etmişdir (İlhan, 2009).

Qəbələnin keçən əsr üzrə böyük üzüm bağları və bir o qədər böyük məhsuldarlığı olmuşdur. Sovet dövrü ərzində ümumilikdə 1100 hektar üzüm bağları salınmışdır. Əkilən 1100 hektar sahəlik üzüm bağından 3743 ton məhsul tədarük olunmuşdur. Daha sonralar müstəqillik dövrünün ilk illərində isə ölkədə hərc-mərclik,zəif iqtisadiyyat olduğundan bununla yanaşı düzgün daxili iqtisadi siyasət olmadığından üzümlüklərin sahəsi azalmağa başlamış, müəssisələr isə fəaliyyətlərini dayandıraraq baxımsız hala gəlmişdir. Hazırda Qəbələdə 480 hektar üzüm bağı var. Həmin bu üzüm bağlarında müxtəlif üzüm növləri becərilir.Bu növlərə gürcü sortları olan “Saperavi, Pkositeli, Aleksandrouli; fransız sortları “Cabernet, Sauvignon, Cabernet Fraue,Pinot Noir”; özbək sortları olan “Batır, Qara kişmiş, Ağ kişmiş, Çəhrayı” əkilib. Qəbələdə “Aqro-Azərinvest” MMC və “Aspi-Aqro” MMC kimi müəssisələr üzümçülük-şərabçılıq ilə məşğul olur.”Aqro-Azərinvest” MMC 165 hektar ərazidə, “Aspi-Aqro” isə 340 hektarlıq ərazidə üzüm bağları salmışdır.Eyni zamanda bu şirkətlərdə “Aqro-Azərinvest” MMC-nin Qəbələdə şərab zavodu, “Aspi-Aqro” MMC-nin isə üzüm emalı zavodu var. Bununla yanaşı Qəbələnin Qaradeyn zavodunda “Aspi Winery” adlı üzüm emalı zavodu da fəaliyyət göstərir.

Qəbələdə istehsal olunan şərablar arasında ən məşhuru “Savalan” şərabıdır. Şərabı istehlakçılara “Savalan” adı altında tanıdılmasında məqsəd bu şərabın istehsalı üçün lazımi üzüm növünün Savalan vadisində yerləşməsidir (12).

“Aspi-Aqro”MMC xarici şirkətlərlə kifayət qədər əlaqəli bir müsəssisədir və üzüm tingləri istehsal edənitalyan brendi “Viva Cooperative Pansedo” və fransa şirkəti olan “Gautard Freres” ilə əlaqəlidir. “Aspi Winery” şərab müəssisəsinin istehsal gücü 1000 tondur. Şərablar zirzəmidə xoş dada və ətirə malik olsunlar deyə xüsusi palıddan hazırlanmış çəlləklərdə saxlanır. Daha sonra bu şərablar yerli bazarla yanaşı Rusiya bazarına da ixrac olunur. Hazır məhsul keyfiyyət nəzarəti baxımından xüsusi texnoloji avadanlığın nəzarətindən keçir. Bu avadanlıq keyfiyyətli şərabın istehsal prosesində yer alan lazer analiz aparatıdır və bu avadanlıqdan istifad etməklə istehsalçı müəssisə şərabın nə dərəcə keyfiyyətli olduğunun fərqinə varır.

**Naxçıvan.**

Üzümçülük kənd təsərrüfatları arasında ən gəlirli bir alt sahədir. Statistikalara əsasən üzümçülük-şərabçılıq iqtisadi səmərəsinə görə dənli bitkilərdən 3.9 dəfə, pambıqdan 2.7 dəfə, tərəvəzlərdən 1.5 dəfə artıq gəlir gətirir. Üzümçülük-şərabçılığın kənd təsərrüfatında istehsalı baha başa gəlməsinə baxmayaraq 1 hektardan əldə edilən gəlirlə görə ən yüksək göstəriciyə malikdir. Naxçıvanda üzümçülük-şərabçılığın inkişafına gəldikdə isə bura hələ qədim zamanlardan insanların üzümçülüklə məşğul olduqları bir coğrafiya olub. Bu bölgə üzrə təşkil olunan arxeoloji qazıntılarda tapılan əşyalar da bizdə burada qədimdə insanların üzümçülüklə məşğul olması ilə bağlı fikir formalaşdırır. Aparılan arxeoloji qazıntılar zamanı bu bölgədə meyvə,üzüm toxumları, şərab saxlanılması və hazırlanması üçün iri küplər aşkarlanmışdır. Qədimdə burada üzümdən kişmiş, mövüc, bəhməz hazırlanaraq qonşu ölkələrə ticarət üçün aparılmış.

Hazırda isə Naxçıvanda 120-dən çox üzüm sortu yetişdirilir. Bu üzüm sortlarından yalnız 100-ü respublika ərazisində yayılmışdır. Naxçıvanın xüsusi ilə Babək rayonunun Nehrəm kəndində üzümçülük təsərrüfatı yerləşir və buranın fəaliyyəti 2015-ci ildən başlanmışdır. Burada yerli sortlarla yanaşı İtaliya, Fransa, Türkiyə və Özbəkistan mənşəli üzüm sortları da yetişdirilir. Salınmış üzüm bağlarının sahəsi 150 hektar ərazini əhatə edir və bu ərazidə 326.000-dən artıq ting var. Eyni zamanda məhsuldarlığın artırılması məqsədilə xarici şirkətlərdən müxtəlif növ texnoloji avadanlıqlar idxal olunmuşdur. Burada istifadə olunan avadanlıqlara nasos stansiyalar, 50 km-dən uzun olan suvarma şəbəkəsi tikilmişdir.

## Nəticə

Turizm məhsulunun şaxələndirilməsi insanların tələb və zövqünə uyğun formalaşır. Məlumdur ki, insanlar bir çox səbəblərdən turizm fəaliyyətlərinə qatılırlar. Bu turizm növlərindən biri də şərab turizmi, vini turizmi və enoturizm, şərab dequstasiyası, zirzəmilərdə turlar və üzüm bağlarında turlar kimi də tanınır. Bu gün enoturizm Fransa, Aİ, İtaliya və s. Ölkələrdə əhəmiyyətli gəlir gətirən turizm növlərindən biridir. Keyfiyyətli tədqiqatla Azərbaycanın enoturizm potensialını araşdırmaq məqsədi daşıyırdı. Ədəbiyyat araşdırması texnikası ilə əldə edilən məlumatlara əsasən müəyyən edilmişdir ki, Azərbaycanda 28 şərab zavodu, onlarla üzüm sortları, həmçinin şərab anbarları mövcuddur. Aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlinib ki, Azərbaycanda enoturizm potensialı var, lakin kifayət qədər təşviq və investisiya yoxdur.

Onun viniturizm (enoturizm) ilə bağlı çoxölçülü araşdırmalara və məlumatlara malik olması diqqətimizi cəlb etmişdir.

## Ədəbiyyat

1. Güven, S. (2010). Şərab turizmi regionlarının rəqabət qabiliyyətinə dair model təklifi: Kapadokya nümunəsi.
2. Süer, S., Keskin, N. Davamlı üzüm bağı və şərab turizmi təcrübələri.
3. Emre Yıldız, Ö. (2009). Türkiyədə şərab turizmi: Çeşmə timsalında məhsul inkişaf modeli.
4. Yılmaz, G., Şahin Yılmaz, A. Şərab turizmi tədqiqatına bütöv baxış: Şəbəkə təhlili ilə xəritəçəkmə.
5. Yılmaz, I., Akay, E. Şərab turizmi xüsusi maraq turizmi.
6. Məhərrəmova, T. (2021). Şərab turizminin mərkəzi kəndi.
7. Santos, V.R., Ramos, P., Almeida, N., Santos-Pavon, E. Wine and wine tourism experience: a theoretical and conceptual review
8. Kym, A. (2004). The worlds wine markets.
9. Soydaş, M.E., Gürlər, M. (2019). Yerli əhalinin şərab turizminə baxışı.
10. Fətəliyev, H., Heydərov, E. (2017). Süfrə şərablarının müasir texnologiyası
11. İlhan, İ. (2009). Şərab turizmi, 257 s.
12. Kobrand Wine, Spirits – WineMaking

Göndərilib: 04.07.2023 Qəbul edilib: 25.08.2023

DOI: https://doi.org/10.36719/2663-4619/94/50-54

**Fatma Əsədova**
Bakı Slavyan Universiteti
fatya.asadova@mail.ru

# ORTA MƏKTƏBDƏ YAZI BACARIQLARININ FORMALAŞMASI

## Xülasə

Azərbaycanda elmi-mədəni, siyasi və iqtisadi sahədə aparılan islahatlar təhsil fəlsəfəsinin dəyişməsi ilə nəticələnmişdir. Respublikada prioritet istiqamətlərdən biri olan yaddaş məktəbindən təfəkkür məktəbinə keçid hesab edilir. Oxu prosesində qazanılan bacarıqlar yazı ünsiyyəti vasitəsilə genişləndirilərək qarşılıqlı əlaqəyə çevrilir. Yazı qoyulmuş hər hansı problem, yaxud mövzu ilə bağlı fikir və mülahizələrin müvafiq formada verilməsini, görülmüş iş haqqında hesabat hazırlanmasını təmin edir. Müəllim şagirdin yaş və bilik səviyyəsinə uyğunluğunu, məzmun və quruluşunu nəzərə alaraq mətn seçməlidir.

Ana dilində mükəmməl yazıb oxumağı, öz fikrini ədəbi dildə səlis ifadə etməyi bacarmaq mədəniliyin başlıca əlamətlərindən hesab olunur. Bu keyfiyyətləri gənc nəsildə tərbiyə etmək üçün Azərbaycan dili proqramı geniş imkanlar verir.

***Açar sözlər:*** *təhsil qanunu, strategiya, şəxsiyyət, yazı işləri, yaradıcı fəaliyyət, orfoqrafik vərdişlər*

**Fatma Asadova**
Baki Slavic University
fatya.asadova@mail.ru

# Formation of writing skills at secondary school

## Abstract

The reforms carried out in the scientific, cultural, political, and economic spheres in Azerbaijan resulted in a change in the philosophy of education. One of the priorities in the Republic is the transition from the school of memory to the school of thought. The skills acquired in the reading process are extended through written communication and become interactive with it. Writing ensures that the ideas and considerations related to any given problem or topic are presented in an appropriate form, and a report is prepared on the work done. The teacher should choose a text taking into account its content and structure, and the appropriateness of the student's age and knowledge level.

Being able to write and read perfectly in the native language and express one's opinion fluently in the literary language is considered one of the main signs of civilization. The Azerbaijani language program provides a wide range of opportunities to educate these qualities in the younger generation.

***Keywords:*** *education law, strategy, personality, writing jobs, creative activity, orthographic habits*

## Giriş

Azərbaycanda elmi-mədəni, siyasi və iqtisadi sahədə aparılan islahatlar təhsil fəlsəfəsinin dəyişməsi ilə sonuclanmışdır. Respublikada prioritet istiqamətlərdən biri olan yaddaş məktəbindən təfəkkür məktəbinə keçid hesab edilir. "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda (2009), "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları" nda (2010), "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013) şəxsiyyətin inkişaf etdirilməsi, cəmiyyətin tələbatlarına uyğun keyfiyyətlər əsasında formalaşdırılması vacib hesab olunmuşdur.

Strategiyada "ölkənin modernləşdirilməsi üçün zəruri olan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq qabiliyyətini yüksəltmək, məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqın milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən,

azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək, milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata, səmərəli əmək fəaliyyətinə hazırlamaq" (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013:12) təhsil sisteminin əsas vəzifəsi hesab edilmişdir.

Yazı mürəkkəb bir əməliyyatdır. O şagirdlərin duyğu və düşünçələrinin dil normalarına uyğun qaydada nəqli, mühakimə və təsviri xarakterli rabitəli mətnlər kimi ifadə edir. Oxu prosesində qazanılan baçarıqlar yazı ünsiyyəti vasitəsilə genişləndirilərək qarşılıqlı əlaqəyə çevrilir. Yazı qoyulmuş hər hansı problem, yaxud mövzu ilə bağlı fikir və mülahizələrin müvafiq formada verilməsini, görülmüş iş haqqında hesabat hazırlanmasını təmin edir. Yazı ədəbi dilin normaları gözlənilməklə şagirdlərin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır (Abdullayev, Kərimov, 1968: 375).

Məktəbdə Azərbaycan dilinin tədrisinin başlıca vəzifələrindən biri şagirdlərə öz fikirlərini, mühakimələrini, oxuduqlarına münasibətini aydın, ardıcıl, səlis, rəvan, düzgün və rabitəli şəkildə ifadə etməyi öyrətməkdir. Lakin şagirdlərin yazı işi tədris olunan əsərlərin mətnlərinin təhlili üzərində olduğundan Azərbaycan dili və ədəbiyyat dərslərindən başqa bu işi tam müstəqil şəkildə həyata keçirmək mümkün olmur (Abdullayev, 2013: 241).

Yazı bacarıqlarının formalaşması fənnin digər məzmun xətlərindən (dinləyb anlama və danışma, oxu və dil qaydaları) ayrılıqda mümkün olmadığı üçün yazı məzmun xətti üzrə standartların tələbləri əsasında yazı işlərininn aparılmasının əsas vasitələri kimi yaradıcı və qiymətləndirici təlim formaları qəbul edilir. Yaradıcı fəaliyyət hazır biliklərin yazılı - məntiqi təhlilini tələb edir: planın tərtibi, konspektlərin hazırlanması, ideya cəhətdən bir-biri ilə ziddiyyət təşkil edən mənbələrin səciyyələndirilməsi və s.

"Dərin bilik üçün də yazı vacibdir. Belə ki, hər şeyi yadda saxlaya bilmir, xüsusən müasir dövrdə elmin, sənayenin, texnikanın və başqa sahələrin sürətlə inkişaf etdiyi bir şəraitdə hər dir yeniliyi tez dərk etmək və yadda saxlamaq mümkün deyil. Lakin yazı bu və ya başqa məsələni əks etdirərək onu istənilən zamanda təsəvvürdə canlandırmağa yenidən xatırlamağa kömək edir. Belə yada salma nəticəsində isə insanlarda bilik daha da dərinləşir və möhkəmlənir. Bununla yanaşı fikri daha da inkişaf etdirməyə imkan verir" (Bayramov, Məhərrəmov, İsgəndərzadə, 2015: 64-65).

Ana dilində mükəmməl yazıb oxumağı bacarmaq, öz fikrini ədəbi dildə səlis ifadə etməyi bacarmaq mədəniliyin başlıca əlamətlərindən hesab olunur. Bu keyfiyyətləri gənc nəsildə tərbiyə etmək üçün Azərbaycan dili proqramı geniş imkanlar verir.

Orta məktəbdə Azərbaycan dili dərslərinin qarşısında duran ümdə vəzifələrdən biri şagirdlərdə savadlı və düzgün, orfoqrafik və qrammatik qaydalara uyğun yazmaq bacarıqlarının formalaşdırılmasıdır. Bu işin müvəffəqiyyətlə reallaşdırması müxtəlif növ yazılar üzərində işin aparılmasından çox asılıdır. Bunun üçün müəllim əvvəlcədən mətnin dilinin şagirdin yaş və bilik səviyyəsinə uyğunluğunu, məzmun və quruluşunu, mürəkkəblik dərəcəsini nəzərə alaraq elə mətn seçməlidir ki, qrammatik, orfoqrafik qaydaların mənimsənilməsi, möhkəmləndirilməsi sahəsindəki işlərin müxtəlif yollarını müəyyənləşdirə bilsin. Müəllim şagirdlərin düzgün yazmalarını öyrətməkdən başqa onların məntiqi təfəkkürünün inkişafına çalışmalıdır. Şagirdlərdə yazılarına tənqidi münasibət bəsləmək, dilin qrammatik və orfoqrafik qaydalarını düzgün tətbiq etmək bacarığı və vərdişləri aşılanmalıdır (Cəfərova, 2016: 403).

Dilin yeni qayda – qanunlarını yazılı və şifahi nitqdə tətbiq etməyin nümunəsini əyani surətdə şagirdlərə göstərmək lazımdır və bununla yanaşı onların məntiqi təfəkkürlərini inkişaf etdirmək üçün qrammatika təlimindən mümkün qədər çox istifadə olunmalıdır. Qrammatik məfhumların əhəmiyyətli əlamətlərini təyin edə bilməyi, dil hadisələrini qarşılaşdıraraq onları təsnif etməyi, canlı ədəbi dil üzərində müşahidə aparmaqla ümumiləşdirilmiş nəticələr çıxara bilməyi də şagirdlərə öyrətməkdə fayda var. Qrammatik tərifləri mexaniki olaraq şagirdlərə əzbərlətmək hallarından qəti

surətdə əl çəkib, onlara qayda – qanunların mahiyyətini izah edərək dərk etdirmək və praktik olaraq yerinə yetirilməsinə nail olmaq lazımdır.

Qrammatika da riyaziyyat kimi elə bir tədris fənnidir ki, onun ayrı-ayrı bölmə və mövzuları bir-biri ilə qarşılıqlı surətdə əlaqədardır. Qrammatikanın müəyyən bölməsi yaxşı mənimsənilməzsə bu hal mütləq özündən sonra gələn bölmənin öyrənilməsində çətinlik törədər və beləliklə, şagirdin ümumi savad səviyyəsinin aşağı düşməsinə səbəb olar (Əfəndizadə, Əhmədov, 1965: 7).

Şagirdləri yazılı nitqin normalarına yiyələndirmək Azərbaycan dili təliminin qarşısında qoyulmuş əsas vəzifələrdəbdir. Fənn üzrə şagirdin müvəffəqiyyəti onun bu sahədəki müvəffəqiyyəti ilə müəyyən edilir.

Bir qisim müəllim əvvəlki dərslərdə şagirdlərin qazandıqları bilik və vərdişləri təkrar etməyi unudur və hər dəfə təlimin müəyyən mərhələsində öz diqqətini növbəti mövzunun öyrədilməsi üzərində cəmləşdirir. Bu zaman çalışmaların sistemi elə qurulur ki, öyrədiləcək yeni dərs bir təhər keçmək mümkün olsun. Belə olduqda çalışmalar bir-biri ilə əlaqəsi olmayan və yalnız müəyyən bir qaydanı öyrətmək üçün ayrılmış mətnlər üzərində aparılır (Dəmirçizadə, 1972: 131).

Hər kəsə məlumdur ki, şagird birinci sinifdən orta məktəbi bitirənə qədər orfoqrafiya məsələləri ilə müntəzəm olaraq qarşılaşır. Deməli, şagird orfoqrafiyanı bütün təhsil aldığı dövürdə öyrənir. Amma qeyd etmək lazımdır ki, orfoqrafiya qaydaları proqramın tələbləri çərçivəsində I-VI siniflərdə öyrənilir. VII-XI siniflərin proqramı isə orfoqrafiya üzrə işlərin məxmununu müəyyən etmir, yalnız şagirdlərin orfoqrafik vərdişlərini təkmilləşdirməyə yuxarı siniflərdə də müntəzəm diqqət yetirilməli olmaları tələbini qarşıya qoyur. Orfoqrafik qaydaların VI sinifdə bitsə də, yazılışı çətin sözlərin öyrənilməsi yuxarı siniflərdə davam edir (Əhmədov, 2007: 119).

Şagirdlərin orfoqrafik vərdişlərindəki bəzi nöqsanlar olur ki, bunları aradan qaldırmaq əvəzinə müəllimlərin bir qismi bu halı aşağı sinifdən gələn qusur hesab edərək məsələyə laqeyd münasibət bəsləyirlər və öz məsuliyyətlərini yalnız proqram üzrə keçilən qaydaların mənimsədilməsi ilə kifayətlənirlər. Məsələn, əgər şagird *q* əvəzinə *ğ* yazırsa, yəni *q*-nın *ğ*-ya keçməsi qaydasını pozursa günahı aşağı sinifdə dərs keçən müəllimdə görüb arxayın davranırlar, heç bir iş aparmırlar. Lakin bilmək lazımdır ki, bir çox hallarda şagirdlərin aşağı sinifdə keçdiyi orfoqrafik qaydalara riayət etməməsi onun biliyinin az olmasından deyil, vərdişə yiyələnməməsindən irəli gəlir. Belə bir nümunə gətirək: xatırlayıram ki, illər öncə orta məktəbdə dərs deyərkən bir faktla qarşılaşmışdım. Dərs ilinin sonunda IV siniflərdə aparılan yoxlama imlada yüksək faizlə müvəffəqiyyət əldə edilmişdi. Növbəti ildə, dərs ilinin ortalarında, eyni sinfin şagirdləri ilə, artıq V sinifdə, eyni mətn üzrə yenidən yoxlama imla yazdırıldı. Bu dəfə müvəffəqiyyət faizi aşağı düşmüşdü. Səbəbi araşdırıldıqda məlum oldu ki, həmin vəziyyət şagirdlərə orfoqrafiyadan IV sinifdə verilmiş bacarıq və vərdişləri möhkəmləndirməyə əhəmiyyət verilməməsindən irəli gəlmişdir.

Düşünürük ki, bu nümunə digər yuxarı siniflərdə də orfoqrafiya üzrə işlərin aparılmasına xüsusi diqqət yetirməyin vacibliyi və əhəmiyyətini aydınlaşdırmaq üçün kifayətdir.

Sözsüz, bu real vəziyyətdən çıxarılan nəticədir. Yaxşı olardı ki, orfoqrafiyanın təlimi elə qurulsun ki, şagirdlərin orfoqrafik savada yiyələnməsi IV sinfin sonunda başa çatsın. Sonrakı siniflərdə müəllim orfoqrafiya üzrə işlərə geniş yer verməyə məcbur olduğuna görə proqram materiallarının tədrisi səmərəli təşkil etməkdə çətinliklərlə qarşılaşmasın deyə buna ciddi yanaşılmalıdır. Nöqsanı aradan qaldırmaq üçün hər bir Azərbaycan dili müəllimi tədris prosesini elə təşkil etməlidir ki, bu zaman şagirdlərin qazandıqları bilik və vərdişlərin hamısını arası kəsilmədən təkmilləşdirmək mümkün olsun (Hacıyev, 2015: 8-11).

Orfoqrafiyanın tədrisi IV-VI siniflərdə ayrıca bir bölmə kimi tədris olunmur. O "Fonetika", "Söz yaradıcılığı" və "Morfologiya" bəhslərinin tərkibində öyrədilir. Orfoqrafiya fonetika, leksika, söz yaradıcılığı və qrammatika ilə biavasitə əlaqədar olduğuna görə bu çox faydalıdır və həmin sahələr üzrə əldə edilmiş biliklər əsasında daha səmərəli mənimsənilir.

Bədii ədəbiyyatdan, qəzet və jurnallardan seçilmiş mətnlər üzərində iş aparılması və yaradıcı yazılardan geniş istifadə edilməsi ədəbi dilin qayda-qanunlarının mənimsənilməsinə, eyni zamanda əvvəlki dərslərdə əldə edilmiş biliklərin təkmilləşdirilməsinə nail olmaq imkanı verdiyi halda, çox vaxt məktəblərimizdə müəllimlər bunlara əməl etmirlər. Sonuc olaraq bütün bunlar şagirdlərin

möhkəm bilik və vərdiş qazanmalarına mane olur və öncədən keçib öyrəndikləri bilikləri tez yaddan çıxarmalarına təsir göstərir. Yoxlama yazıların aparılması vasitəsilə şagirdlərin hər hansı dil qaydalarını, elmi, bədii materialı necə mənimsəmələrini üzə çıxır. Yazı işləri şagirdlərin biliklərinin inkişaf etdirilməsinə, dünyagörüşlərinin, yazı bacarıq və vərdişlərinin təkmilləşdirilməsinə müsbət təsir göstərir. Bu mənada, ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyat fənlərində həyata keçirilən bütün yazı işləri şagirdlərin savad və bilik səviyyəsinin inkişaf etdirilməsinə xidmət edir.Məhz buna görə də yazı işləri müxtəlif adlarla adlandırılsa da, onların arasında möhkəm və qırılmaz əlaqə var. Bunları nəzərə alaraq hər bir müəllim dərs prosesində yazı növlərinin bünövrəsini təşkil edən sinif və ev tapşırıqlarının icrasının daha effektli olmasına çalışmalıdır. Müəllim işi elə qurmalıdır ki, şagirdlər sinif və ev tapşırıqlarını yazarkən, yoxlama yazıların icrası zamanı yaranan məsuliyyəti dərk etsinlər. Şagirdlər bilməlidirlər ki, hər hansı yazı onun sahibinin biliklərini, dünyagörüşünü əks etdirən bir vasitədir. Əgər şagird savadlı, ağıllı, tərbiyəli, bacarıqlı olduğunu sübut etmək istəyirsə, onu savadlı və gözəl yazısı ilə təqdim etməlidir. Çalışmaq lazımdır ki, şagirdlər "Azərbaycan dili" dərsliklərində təqdim edilən bütün tapşırıqların hamısını yerinə yetirsinlər, çünki onlar mövzunun öyrədilməsinə və möhkəmləndirilməsinə xidmət edir. V-VI sinif dərsliklərində kifayət qədər çalışmalar verilmişdisə də, VII-VIII sinif dərsliyində onların sayı azlıq təşkil edir, lakin bəzi mövzularla bağlı tapşırıqlar isə lap yox dərəcəsindədir. Buna görə də müəllimlər dərsliklərdəki çalışmalarla kifayətlənməməli, müxtəlif metodik vəsaitlərdən istifadə etməli, məsələyə yaradıcı yanaşaraq özləri mövzuya uyğun tapşırıqlar tərtib etməli, fonetik və qrammatik təhlillərə çox yer verməlidirlər (Kərimov, 2011: 563).

Qabaqcıl və təcrübəli müəllimlər Azərbaycan dili fənnini ədəbiyyatla əlaqəli tədris edir, ədəbiyyata inteqrasiya etmiş olur, hər hansı mövzuya aid ədəbiyyatdan keçilmiş materiallardan cümlələr seçməyi, həmin cümlələr üzərində müxtəlif xarakterli təhlillər aparmağı şagirdlərə tapşırırlar. Orta məktəbdə Azərbaycan dili dərslərində müxtəlif növ yazı işlərindən istifadə edilir. Bu yazılar məzmun və məqsəd baxımından verə biləcəyi bilik və bacarıqlara görə bir-birindən fərqlənir. Onları ayrı-ayrılıqda təhlil etsək görərik ki, təlim prosesində şagirdlərin əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsində, düzgün yazmaq vərdişlərinə yiyələnməsində və müxtəlif yazı vərdişlərinin aşılanmasında sinif və evdə həyata keçirilən tapşırıqların çox əhəmiyyəti var. Müəllimlər şagirdlərin yerinə yetirdikləri tapşırıqların düzgün, qaydalara uyğun aparılmasına müvəffəq olmalı və ciddi yanaşmalıdırlar. Buna görə də müəllimlər şagirdlər tərəfindən yerinə yetirilən tapşırıqların düzgün, qaydalara uyğun icrasına nail olmalı, ona tələbkarlıqla yanaşmalıdırlar. Təbii ki, Azərbaycan dili dərsliklərində bütün tapşırıqlar həm şagirdlərin elmi-nəzəri biliklərinin möhkəmləndirilməsində, həm də onlarda müxtəlif dil qaydalarına söykənən yazı vərdişlərinin aşılanmasında, ümumiyyətlə, yazı mədəniyyətinin formalaşmasında mühüm rol oynayırsa, müxtəlif qaydaların öyrədilməsi üçün istifadə edilən yazılar, həm bu vəzifələrin yerinə yetirilməsinə kömək edir, şagirdlərin bu sahədə qazandıqları biliklərin dərəcəsini müəyyənləşdirməkdə həlledici rol oynayır.

Yazı işləri xarakterindən və növündən asılı olmayaraq bütün siniflərdə yerinə yetirilməsi vacib olan vəzifələrdəndir. Təhsil Nazirliyinin "Ümumtəhsil məktəblərində şagirdlərin yazı işlərinin aparılması və dəftərlərinin yoxlanmasına verilən vahid tələblər"də (Ümumtəhsil məktəblərində şagirdlərin yazı işlərinin aparılması və dəftərlərinin yoxlanmasına verilən vahid tələblər, 1991: 85-86) şagird dəftərlərinin miqdarı, yazıların aparılması və yoxlanması haqqında konkret məlumat verilmişdir. "Vahid tələblər"də öyrədici yazı dəftərləri ilə əlaqədar qeyd edilir: "I. Öyrədici yazıların bütün növlərini + yerinə yetirmək üçün şagirdlərin aşağıdakı miqdarda dəftərləri olmalıdır: Azərbaycan dilindən V-IX siniflərdə 3 dəftər (1, 2 nömrəli, digəri ifadə və inşa yazıları üçün); X-XI siniflərdə 1 dəftər; ədəbiyyatdan 1 dəftər" (Paşayev, 2012: 7).

## Nəticə

Məktəbdə Azərbaycan dilinin tədrisinin əsas vəzifələrindən biri şagirdlərə öz fikirlərini, mühakimələrini, oxuduqlarına münasibətini aydın, ardıcıl, emosional və inandırıcı şəkildə ifadə etməyi öyrətməkdir. Amma şagirdlərin yazı işi təbii davamı və tədqiq olunan əsərlərin mətnlərinin

təhlili üzərində davamlı işin nəticəsi olduğundan Azərbaycan dili və ədəbiyyat dərslərindən başqa bu işi tam müstəqil şəkildə həyata keçirmək olmaz.

Yazı şagirdlərin duyğu və düşünçələrinin dil normalarına uyğun rabitəli mətnlər formasında ifadəsini təmin edir. O`xu prosesində qazanılan baçarıqlar yazı vasitəsilə genişləndirilir. Yazı qoyulmuş hər hansı problem, yaxud mövzu ilə bağlı fikir və mülahizələrin müvafiq formada verilməsini, görülmüş işin hesabatının hazırlanmasını təmin edir. Ədəbi dilin normaları gözlənilməklə şagirdlərin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır.

Yuxarı siniflərdə şagirdlər yazı işlərində geniş və təfərrüatlı informasiyaları qısa şəkildə çatdırmaq tələbi ilə daha tez-tez üzləşirlər. Məsələn, esse yazdıqda hadisələrin qısa məzmunundan istifadə edir, bədii əsərlər əsasında inşa yazarkən əsərin məzmununun xülasəsini verməli olurlar və s. Bu vərdişin formalaşması ibtidai siniflərdən başlayaraq müxtəsər ifadə yazı işi təlimlərinin aparılması ilə sıx bağlıdır.

Yazı bacarıqlarını düzgün formalaşdırılması üçün şagirdlərdə özünənəzarət vərdişini inkişaf etdirmək onların orfoqrafik savadlarındakı kəsirləri aradan qaldırmaq çox mühüm və həlledici əhəmiyyətə malikdir. Şagirdlərdə bu vərdişin formalaşması və inkişafına müvafiq çalışmalar və iş üsullarından istifadə edərək nail olmaq olar. Çalışmalardan elə istifadə edilməlidir ki, orada bir tərəfdən asandan çətinə, sadədən mürəkkəbə doğru prinsipi gözlənilsin, digər tərəfdən də həmin çalışmaları yerinə yetirərkən şagirdlərin müstəqilliyini ardıcıl surətdə inkişaf etdirmək mümkün olsun.

Yekun olaraq deməliyik ki, bütün siniflər üzrə Azərbaycan dili dərslərində yeri gəldikcə kiçik həcmli öyrədici imla, ifadə və inşalardan istifadə olunması məqsədəuyğun hesab edilir. Bu cür yazıların icrası üçün proqramda ayrıca saat verilmir. Müəllimlər hər hansı mövzunu keçərkən şifahi və yazılı çalışmaların icrasından və yeni mövzunun möhkəmləndirilməsindən sonra 5-10 dəqiqə bu cür öyrədici kiçik həcmli yazılardan istifadə edirlər. Yazı işləri xarakterindən və növündən asılı olmayaraq bütün siniflərdə yerinə yetirilməsi vacib olan vəzifələrdəndir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan məktəbi. (2013). № 5, 12 s.
2. Abdullayev, A., Kərimov, Y. (1968). İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı: Maarif, 375 s.
3. Abdullayev, N. (2013). Nitq mədəniyyətinin əsasları. Bakı: ADPU, 241 s.
4. Bayramov, A., Məhərrəmov, Ə., İsgəndərzadə, M. (2015). Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: ULU İKF, 236 s.
5. Cəfərova, N.B. (2016). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı: ADPU-nəş., 403 s.
6. Əfəndizadə, Ə., Əhmədov, B. (1965). Azərbaycan dilinin tədrisi. I hissə. Bakı: Azərtədrisnəşr, 367 s.
7. Dəmirçizadə, Ə. (1972). Müasir Azərbaycan dili. I c. Bakı: Maarif, 131 s.
8. Əhmədov, B. (2007). Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: Mütərcim, 119 s.
9. Hacıyev, A. (2015). Yazı bacarıqlarının yaradılması və inkişafı ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin əsas istiqamətlərindən biri kimi. Azərbaycan dili və ədəbiyyat tədrisi. Bakı: № 3, s.8-11.
10. Kərimov, Y.Ş. (2011). Ana dilinin tədrisi metodikası. Bakı: Kövsər, 563 s. Maarif, 289 s.
11. "Ümumtəhsil məktəblərində şagirdlərin yazı işlərinin aparılması və dəftərlərinin yoxlanmasına verilən vahid tələblər". (1991). Təhsil Nazirliyi "Ana sözü" jurnalı. № 4-6, s.85-86.
12. Paşayev, A. (2012). Azərbaycan dili və ədəbiyyatı tədrisinin bəzi problemləri. Bakı: Hədəf, 178 s.


Göndərilib: 16.07.2023 Qəbul edilib: 02.09.2023

DOI: https://doi.org/10.36719/2663-4619/94/55-61

**Aytakin Gasimzadeh**
UNEC Business School
t-qasimzadeaytekin@unec.edu.az

# COST-BENEFIT ANALYSIS OF SMART CITY PROJECT MANAGEMENT: AGHALI SMART VILLAGE PROJECT EXAMPLE

**Abstract**

Smart cities are establishing themselves as a viable solution to the issues brought by rising urbanization and technology advances. Smart city project execution requires thorough analysis of costs and benefits to enable long-term growth. CBA is a critical tool in smart citiy project management, assisting in determining the economic viability and possible implications of large-scale urban initiatives. As demonstrated in the Aghali Smart Village Project, CBA provides significant insights that enable decision-makers to make informed choices, prioritize investments, and build long-term, technologically sophisticated communities. Smart city projects can pave the way for more efficient, habitable, and sustainable urban environments by identifying the correct balance between costs and benefits.

This article discusses the Aghali Smart Village Project's Cost-Benefit Analysis (CBA), demonstrating the practical use of project management concepts in the context of a real-world smart city endeavor. By investigating the project's financial, social, technological, economic, environmental, and stakeholder participation components, significant insights into the complexities and nuances of smart city project management have been acquired.

***Keywords:*** *cost-benefit analysis, smart city, smart village, project management, Aghali smart village*

**Aytəkin Qasımzadə**
UNEC Biznes Məktəbi
t-qasimzadeaytekin@unec.edu.az

## Ağıllı şəhər layihə idarəetməsinin xərc-fayda təhlili: Ağalı ağıllı kənd layihəsi nümunəsi

**Xülasə**

Ağıllı şəhərlər artan urbanizasiya və texnoloji irəliləyişlərin gətirdiyi problemlərə uyğun həll yolu kimi özlərini təsdiq edirlər. Ağıllı şəhər layihəsinin icrası uzunmüddətli artımı təmin etmək üçün xərclər və faydaların hərtərəfli təhlilini tələb edir. Xərc-fayda təhlili ağıllı şəhər layihələrinin idarə edilməsində mühüm vasitədir və irimiqyaslı şəhər təşəbbüslərinin iqtisadi səmərəliliyini və mümkün nəticələrini müəyyən etməyə kömək edir. Ağalı Ağıllı Kənd Layihəsində göstərildiyi kimi, xərc-fayda təhlili qərar qəbul edənlərə məlumatlı seçimlər etməyə, investisiyaları prioritetləşdirməyə və uzunmüddətli, texnoloji cəhətdən mükəmməl icmalar qurmağa imkan verən mühüm anlayışlar təqdim edir. Ağıllı şəhər layihələrində xərclər və faydalar arasında düzgün tarazlığı müəyyən etməklə daha səmərəli, yaşayış üçün əlverişli və davamlı şəhər mühitlərinə yol açıla bilər.

